

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Müsəlman Şərqinin ilk dünyəvi-demokratik dövləti




3


SƏS

№ 093 (6776)

27 may 2023-cü il.
Qiyməti 60 qəpik





## DAHİ şəxsiyyətə hədsiz ehtiram

8

# Alternativi olmayan sülh



2

Ermənistan və Azərbaycan rəhbərləri AİƏ sammitində ərazi bütövlüyünün qarşılıqlı tanındığını bəyan ediblər

## Alman nəşri: "Kılıçdaroğlunun bacarıqsızlığı Ərdoğanın qələbəsidir"



14

## Fərdi evlərin sığortalanması vacibdir?



7

## Son zəng: XATİRƏ, YOXSA İSRAFÇILIQ?



11



6

## Erməni diversantların dövlət sərhədini yarıb keçmək cəhdinin qarşısı alındı

## Odey, taksi



10

BAXIŞ BUCAĞI

# Alternativi olmayan sülh

## Ermənistan və Azərbaycan rəhbərləri AİI sammitində ərazi bütövlüyünün qarşılıqlı tanındığını bəyan ediblər



Moskvada Azərbaycan-Ermənistan sülh müzakirələrinin növbəti raundu çox maraqlı detalları ilə yadda qaldı. Üçtərəfli götüşdən əvvəl Ali Avrasiya İqtisadi Birliyinin sammitində qonaq qismində iştirak edən Azərbaycan Prezidenti İlham Əliyev destruktiv fikirləri, yanlış yanaşmaları ilə gündəmə gəlmək istəyən Ermənistanın baş nazirini, sözün əsl mənasında, yerində oturtdu. Paşinyanın arqumentlərində böyük səhvlərə yol verdiyini, dəhlizlə yolun fərqinə vara bilmədiyi iradını bildirdi. Ermənistanın baş naziri öz çıxışı ilə beynəlxalq münasibətlər sistenindən, norma və prinsiplərdən nə qədər uzaq olduğunu bird aha nümayiş etdirdi.

Görüşdə sülh sazişi ilə bağlı hansısa sənədlərin imzalanacağı gözlənilsə də, əsas gündəm regionda kommunikasiyanın açılması üzərində quruldu. Cəmi 20 dəqiqə çəkən üçtərəfli görüşün yekun razılaşması "kommunikasiyanın açılması üzrə üçtərəfli işçi qrupu"nun gələn həftə görüşməsi oldu.

Azərbaycanın qərb rayonları ilə Naxçıvanı birləşdirəcək yolun hansı statusda - "maneəsiz keçid", "dəhliz", yoxsa "yol" məntiqi ilə açılacağı hələ də mübahisə mövzusudur, deyə bilərik. Amma daha önəmli məsələdə, yəni tərəflərin bir-birinin ərazi bütövlüyünü rəsmən tanımasında əldə edilmiş razılaşma gələcək danışıqlar üçün münbit mühit yaradır. Prezident İlham Əliyevin də dediyi kimi, bu, sülh müqaviləsinin imzalanması ətrafında aparılan danışıqları asanlaşdırır.

Moskvada keçirilən görüşdə şıxış edən Rusiya prezidenti Vladimir Putin Azərbaycan prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyanla görüşündə deyib ki, Ermənistan və Azərbaycan arasında Qarabağda yaranan vəziyyət nizamlanmaya doğru gedir. Qalan suallar texniki xarakterlidir:

"Hələ həll olunmamış məsələlər var, amma məncə, - biz bu barədə Azərbaycan tərəfdən olan həmkarlarımızla, Ermənistan tərəfdən isə həmkarlarımızla danışdıq, - bunlar sırf texniki xarakter daşıyır".

Rusiya prezidenti həmçinin qeyd edib ki, həm Paşinyan, həm də Əliyev problemin həllini tapmağa hazırdır, danışıqlara hazırdır. Bundan əvvəl Ermənistan, Azərbaycan və Rusiya baş nazirlərinin müavinləri arasında nəqliyyat əlaqələrinin bloklanmasına həsr olunmuş danışıqların Moskvada aparılacağını bildirilmişdi.

### Ərazi bütövlüyünün qarşılıqlı tanındığı barədə bəyanat

Qarabağ münaqişəsi sona yaxınlaşır. Ermənistan və Azərbaycan liderləri ərazi bütövlüyünün qarşılıqlı tanınması barədə razılığa gəliblər. Ermənistanın baş naziri Nikol Paşinyan Azərbaycanla Qarabağdakı ermənilərlə tezliklə dialoqun baş tutacağına ümid etdiyini bildirib. Azərbaycan prezidenti İlham Əliyev isə deyib ki, Ermənistan rəhbərliyi Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıdığı vaxtdan İrəvanla sülh sazişi mümkündür.

Ermənistanın baş naziri Nikol Paşinyan həmçinin xatırladıb ki, Qarabağ sakinlərinin hüquqlarını və təhlükəsizliyini "beynəlxalq mexanizm çərçivəsində" təmin etmək vacibdir. O, həmçinin "Bakı ilə Qarabağ ermənləri arasında qısa müddətdə normal, konstruktiv dialoqun başlayacağına" ümid etdiyini bildirib.

AİI-nin Moskvada keçirilən sammitində Azərbaycan və Ermənistan rəhbərləri arasında gərgin diskussiya olub. Buna səbəb İlham Əliyevin işlətdiyi "Zəngəzur dəhlizi" ifadəsi olub. Paşinyanın fikrincə, bu ifadə Ermənistana qarşı "ərazi iddialarını ifadə etməyə xidmət edir". Baş nazir xatırladıb ki, Ermənistan, Rusiya və Azərbaycan liderlərinin üçtərəfli bəyanatında yalnız bir dəhlizdən - Ermənistanı Dağlıq Qarabağla birləşdirən Laçın dəhlizindən söhbət gedir. İlham Əliyev isə cavabında bəyan edib ki, Azərbaycan və Naxçıvan Muxtar Respublikası arasında Ermənistan ərazisindən keçməli olan dəhliz onun ərazisinə təcavüz deyil. "Demək istəyirəm ki, bizim Ermənistana belə ərazi iddialarımız yoxdur. İstifadə etdiyim "dəhliz" sözünə gəlincə, mən onu Şimal-Cənub dəhlizinə münasibətdə eyni şəkildə işlətmişəm, eyni şəkildə bu söz Şərq-Qərb dəhlizinə münasibətdə işlədilir. "Dəhliz" adı heç bir halda kiminsə ərazisinə təcavüz deyil. Bu, beynəlxalq termindir".

Bundan başqa, Xankəndidən Ermənistana gedən və Laçın rayonu ərazisindən keçən yolun işləməsi məsələsində də fikir ayrılığı olub. Ermənistanın baş naziri deyib ki, bu "dəhliz" bağlanıb, Azərbaycan Prezidenti isə bununla razılaşmayıb. Rusiya prezidenti Vladimir Putin Paşinyan və Əliyevlə üçtərəfli görüş ərəfəsində deyib ki, uğurlu müzakirə və ziddiyyətlərin aradan qaldırılmasına ümid edir: "Ümid edirəm ki, biz həm Azərbaycan, həm Ermənistan, həm də bütün region üçün iqtisadi inkişaf maraqları sferasında kifayət qədər aydın olan şeyləri razılaşdıra biləcəyik. Mənə elə gəlir ki, bizim üçtərəfli formatda bütün bunları ətraflı müzakirə etməyə vaxtımız olacaq".

Putin həmçinin vurğulayıb ki, ərazi bütövlüyü məsələsində Bakı ilə İrəvan arasında fundamental razılaşmalar vacibdir. Nəticədə, o əlavə edib ki, ikinci dərəcəli məsələlərdə də konsensus əldə oluna bilər.

Bundan əvvəl Nikol Paşinyan vurğulamışdı ki, regionda yaşayan ermənilərə qarşı "etnik təmizləmə və soyqırımı siyasətinin davam etdirilməsini" istisna edəcək təminatlar yaratmaq lazımdır. Bundan başqa, o əlavə edib ki, Ermənistan Qarabağın erməni əhalisinin təhlükəsizliyini təmin etmək şərti ilə Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımağa hazırdır. "Azərbaycanla sülhün və münasibətlərin qurulmasına dair saziş üzrə intensiv danışıqlar gedir və biz mətn üzrə ən qısa zamanda razılığa gəlib imza atacağımıza ümid edirik", - Paşinyan bildirib.

Azərbaycan Prezidenti İlham Əliyev bəyan edib ki, Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanması qaçılmazdır: "Biz inanırıq ki, sülh sazişinin imzalanması qaçılmazdır və biz öz tərəfimizdən bu məqsədə çatmaq üçün konstruktiv səylər göstərməyə çalışırıq". Azərbaycan Prezidenti vurğulayıb ki, sülh sazişi "beynəlxalq prinsipləri və normaları" əhatə etməlidir.

Nikol Paşinyanın sözlərinə görə, Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası SSRİ Silahlı Qüvvələrinin Baş Qərargahının 1975-ci il xəritələri əsasında aparılmalıdır.

### Kreml sülh ehtimalını dəyərləndirib

Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib ki, hazırda Bakı ilə İrəvan arasında sülh müqaviləsinin imzalanacağını proqnozlaşdırmaq çətindir, lakin belə bir sazişin imzalanması "yaxın gələcəkdə" mümkündür. "İndi heç kimin sülh müqaviləsinin imzalanma tarixini proqnozlaşdıra bilməsi ehtimalı azdır. İndi vəziyyət bir çox cəhətdən dəyişib və konseptual olaraq onlar bizə yaxın gələcəkdə sülh müqaviləsi imzalamağa imkan verir", - Kremlin sözçüsü bildirib.

Eyni zamanda, Peskovun sözlərinə görə, iş səviyyəsində artıq "heç bir süni maneə" olmamalıdır.

Xatırladaq ki, mayın 25-də Ermənistan və Azərbaycan bir-birinin ərazi bütövlüyünün qarşılıqlı tanınması barədə razılığa gəliblər. Azərbaycan prezidenti İlham Əliyev Bakı ilə İrəvan arasında ərazi bütövlüyünün tanınması əsasında münasibətlərin normallaşması üçün "ciddi" ilkin şərtləri açıqlayıb.

### Baş nazirlərinin müavinləri Moskvada görüşəcək

Rusiya Baş nazirinin müavini Aleksey Overçuk 2023-cü il mayın 25-də Rusiya Federasiyası, Ermənistan və Azərbaycan baş nazirlərinin müavinləri arasında danışıqların Moskvada aparılacağını bəyan edib. Bu görüşün mahiyyəti regionda nəqliyyat kommunikasiyalarının blokdan çıxarılması məsələlərini müzakirə etməkdir: "Baş nazir müavinlərinin görüşü Moskvada olacaq".

Overçuk həmçinin əlavə edib ki, hər üç tərəf həm məsələnin mahiyyətini, həm də onun həlli üsullarını yaxşı bilir, ona görə də indi danışıqlar daha çox texniki detalların müzakirəsinə həsr olunacaq, çünki bu, son dərəcə mühümdür, çünki söhbət məsələnin həlli mexanizmlərindən gedir. "Konkret olaraq, biz sadəcə keçidin hansı qaydada və hansı prosedurlardan ibarət olacağı barədə danışacağıq", - deyə baş nazirin müavini əlavə edib.

Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayeva xarici jurnalistlərə açıqlamasında deyib ki, "Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında iyunun 1-də Moldovanın paytaxtı Kişineuda Avropa Siyasi Birliyinin sammiti çərçivəsində keçiriləcək görüş zamanı sülh sazişi imzalana bilər. Ümid edirik ki, nəhayət, sülh müqaviləsi imzalanacaq. Bu fürsəti qaçırmaq olmaz".

Qeyd edək ki, iyunun 1-də keçiriləcək görüşdə Ermənistan və Azərbaycan liderləri Almaniya kansleri, Fransa prezidenti və Avropa Birliyi Şurasının sədri Şarl Mişelin iştirakı gözlənilir.

Bəli, Azərbaycan Prezidenti İlham Əliyevin dərin diplomatik biliyi və tutarlı arqumentləri qarşı tərəfi növbəti dəfə susmağa və reallıqla barışmağa məcbur etdi. Paşinyan hələ də Zəngəzur dəhlizinin açılmasına şübhə ilə yanaşır, amma unudur ki, "Valday"da "Qarabağ Azərbaycandır və nida işarəsi" deyən Prezident İlham Əliyev bu məsələni də qısa müddətə reallaşdıracaq. Artıq Paşinyanın Zəngəzur dəhlizi ilə bağlı canfəşanlıq etməsi əbəsdir, Azərbaycanın yaratdığı reallıq dəyişməzdir. Buna Ermənistanın gücü çatmaz.

***V.VƏLİYEV***

1918-ci il mayın 28-i Azərbaycanın ictimai-siyasi həyatında baş verən tarixi hadisədən 105 illik zaman ötür. 1918-ci il mayın 28-də qəbul edilən İstiqlal Bəyannaməsindən də göründüyü kimi, bu möhtəşəm tarix xalqımızın müstəqillik hisslərini daha da gücləndirdi. 71 il sovet dövründə yaşayan Azərbaycan, müstəqilliyini bərpa etdikdən sonra, hər il ölkəmizdə 28 May Respublika Günü böyük təntənə ilə qeyd edilir. Keçirilən tədbirlərdə Cümhuriyyət dövrünə bir daha nəzər salınır, onun tariximizdəki yeri və rolu ətraflı təhlil edilir, dövlət quruculuğu təcrübəsi hərtərəfli öyrənilir. Azərbaycan Prezidenti İlham Əliyevin 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunması və Cümhuriyyətin 100 illik yubileyinin yüksək səviyyədə qeyd edilməsi ilə bağlı imzaladığı sərəncamları dövlətçilik tariximizə olan böyük ehtiramın nümunəsi kimi tarixiləşdi..Müstəqil, azad, demokratik respublika qurmaq məqsədini qarşıya qoyan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirdi.1918-ci il mayın 28-də Azərbaycanın istiqlaliyyətinin elan edilməsində, Xalq Cümhuriyyətinin təşəkkül tapmasında və fəaliyyət göstərməsində Cümhuriyyətə rəhbərlik etmiş şəxslərin - Əlimərdan bəy Topçubaşovun, Fətəli xan Xoyskinin, Həsən bəy Ağayevin, Nəsib bəy Yusifbəylinin, Səməd bəy Mehmandarovun, Əliağa Şıxlinskinin və başqalarının xidmətləri danılmazdır. Bu görkəmli dövlət xadimlərinin, vətənpərvər ziyalıların və peşəkar hərbçilərin adları xalqımızın yaddaşına əbədi həkk olunmuşdur. AXC Avropanın demokratik dəyərləri ilə Şərq mədəniyyətinin xüsusiyyətlərini üzvi şəkildə birləşdirən yeni dövlət və cəmiyyət nümunəsi idi. Tarixdən bildiyimiz kimi, AXC Hökuməti 1918-ci il mayın 28-dən iyunun 16-dək Tiflisdə, iyunun 16-dan sentyabrın 17-dək Gəncədə, sentyabrın 17-dən 1920-ci il aprelin 28-dək Bakıda fəaliyyət göstərmişdir. AXC Paris Sülh Konfransının qərarına əsasən, müstəqil dövlət kimi tanınmışdı. Dünyanın bir çox ölkələri ilə səfirlik və nümayəndəliklər səviyyəsində diplomatik münasibətlər yaratmış, ikitərəfli və çoxtərəfli müqavilələr və sazişlər bağlamışdı. AXC 1920-ci il aprelin 28-də beynəlxalq hüquq normalarını kobudcasına pozan RSFSR-ın hərbi müdaxiləsi nəticəsində, aradan qaldırıldı. Şimali Azərbaycan rus-bolşevik qoşunları tərəfindən işğal edildi və yenidən Rusiyaya tabe olundu. Cəmi 23 ay fəaliyyət göstərməsinə baxmayaraq, ilk respublika dövründə həyata keçirilən tədbirlər müstəqil dövlətçiliyimizin əsaslarının yaradılması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından, mühüm əhəmiyyət kəsb etdi.



# Müsəlman Şərqinin ilk dünyəvi-demokratik dövləti

Prezident İlham Əliyev: "Bu gün biz xoşbəxtik ki, müstəqil ölkə kimi, azad xalq kimi yaşayırıq, taleyimiz öz əlimizdədir"








Cümhuriyyət dövründə milli ordumuzun yaradılması, atributlarımızın, dövlət dilimiz haqqında qanunun qəbul olunması, maarif və səhiyyə sahəsində geniş tədbirlərin həyata keçirilməsi, Azərbaycanın sərhədlərinin və təhlükəsizliyinin təmini istiqamətində böyük işlər görülüb. Hələ o dövrdə söz azadlığı, demokratiya, gender bərabərliyi kimi məxsusi dəyərlərə malik olub. Bu dövrdə AXC müsəlman xalqlarına müstəmləkəçilikdən xilas olmağın yolunu göstərib, onlar üçün nümunə olaraq, Avropanın bir çox ölkələrindən xeyli əvvəl qadınlara seçibseçilmək hüququ verib. Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırıb. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində qeyd etdiyi kimi, "Xalq Cümhuriyyətinin ömrü uzun olmasa da, 23 ay ərzində çox böyük işlər görə bilmişdir. Dövlət bayrağı, Azərbaycan vətəndaşlığı təsis edilmişdir, milli ordu yaradılmışdır və Qafqaz İslam Ordusu ilə birlikdə Bakını işğalçılardan azad etmişdir. Bakı Dövlət Universiteti yaradılmışdır. Bu, onu göstərir ki, təhsilə çox böyük diqqət yetirilirdi. 200-dən çox qanun qəbul olunmuşdur. Onların arasında qadınlara səsvermə hüququ verən qanun qəbul edilmişdir. Yəni, bütün bu və digər addımlar onu göstərir ki, Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları ölkəmiz, xalqımız üçün çox böyük işlər görmüşlər".

## TARİXİ MİSSİYA YERİNƏ YETİRİLDİ

1991-ci ildə öz müstəqilliyini bərpa edən müasir Azərbaycan Respublikası, 1918-1920-ci illərdə, 23 ay ərzində, mövcud olan və müsəlman Şərqində ilk dünyəvi-demokratik dövlət kimi tarixə düşən Azərbaycan Xalq Cümhuriyyətinin siyasi varisidir. Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın qədim dövlətçilik ənənələrini yaşadaraq, həmin dövr üçün mütərəqqi hesab edilən dövlət təsisatlarının yaradılmasına nail olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, hərbi quruculuq və sair sahələrdə həyata keçirdiyi işlər Azərbaycan xalqının tarixinin parlaq səhifəsidir.Qısa müddətdə, tarixi bir missiyanı yerinə yetirərək, genişmiqyaslı demokratik islahatlar həyata keçirib. Cümhuriyyət dövründə xalqımızın taleyinə ciddi təsir edə biləcək qanun və qərarlar qəbul olunub. Cümhuriyyət dövründə əldə olunan nailiyyətlər sırasında təhsil sahəsində olan uğurları da qeyd etməliyik. Xalq təhsili və maarifləndirmə üzrə ilk nazirlik Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti tərəfindən təsis edilib. Nazirlər Şurasının qərarı ilə 30 iyun 1918-ci ildə üç şöbədən - ümumi orta təhsil, ali və orta ixtisas təhsili, peşə məktəblərindən ibarət strukturu təsdiq edilib. Xalq təhsili sahəsində ilk önəmli tədbir məktəblərin milliləşdirilməsi olub, bu da, təhsilin doğma Azərbaycan türk dilinə keçirilməsi idi. Bununla da, ilk dəfə olaraq, azərbaycanlı uşaqların doğma dildə təhsil alma hüququ qanuniləşdirilib.Dövrün nadir sistemi olan AXC cəmi 23 ay yaşadı və bolşeviklərin işğalı ilə üzləşdi. Nəhayət, 71 ildən sonra, Sovet İttifaqının dağılması ilə Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdi. Dövlət müstəqilliyimiz bərpa edildikdən sonra xalqımız Cümhuriyyətin ideallarını davam etdirərək, bu tarixi varislik üzərində yeni müasir müstəqil Azərbaycan dövlətini yaradıb.

AXC-nin hüquqi varisi olan müstəqil respublikamız Cümhuriyyət dövrünün demokratik dəyərlərinə sadiq qalaraq, sürətlə inkişaf edir və dünya birliyində layiqli yer tutur.

## AZƏRBAYCAN DÜNYADA DƏYİŞƏN VƏZİYYƏTƏ UYĞUN OLARAQ SİYASƏTİNİ APARIR

Ölkəmizin müstəqillik illərində qazandığı nailiyyətlərin bünövrəsi, məhz Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ulu Öndər qısa bir zamanda Azərbaycanı düşdüyü xaosdan, böhrandan çıxara bildi. Ulu Öndər Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan dövləti sürətli inkişaf yoluna qədəm qoydu. Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, "Heydər Əliyevin xalq qarşısında xidmətlərindən biri də o idi ki, Azərbaycan əsl müstəqillik yoluna qədəm qoydu. Həm siyasi, həm iqtisadi, həm də digər sahələrdə çox ciddi islahatlar aparılmağa başlanmışdır. Nizami ordu yaradılmışdır, ölkəmizə böyük həcmdə xarici sərmayə gəlməyə başlamışdır, dövlətçiliyin əsasları qoyulmuşdur, azərbaycançılıq ideologiyası rəsmi ideologiya kimi qəbul edilmişdir. Bir sözlə, məhz o illərdə Azərbaycanın strateji inkişaf istiqamətləri müəyyən edildi. Bu gün Azərbaycan bu strateji inkişaf istiqamətlərini əsas tutaraq bölgədə, dünyada dəyişən vəziyyətə uyğun olaraq öz inamlı siyasətini aparır".

Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycanın beynəlxalq nüfuzunun möhkəmləndirilməsinə, beynəlxalq təşkilatlarda səmərəli fəaliyyətə, dünya ölkələri ilə ikitərəfli və çoxtərəfli platformada əməkdaşlıq əlaqələrinin qurulmasına nail oldu. Azərbaycan Prezidenti İlham Əliyev milli mənafelərlə bağlı problemlərin həllində həssas və fəal yanaşma nümayiş etdirdi. Azərbaycan dünyanın maraq dairəsinə əbədi daxil oldu və geosiyasi platformada ölkəmiz güc və nüfuz sahibinə çevrildi.

## "MÜSTƏQİL AZƏRBAYCAN AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN VARİSİDİR VƏ ONLARIN NİYYƏTLƏRİNİ BİZ HƏYATDA TƏMİN ETDİK"

Bu gün Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikasında demokratik, hüquqi, dünyəvi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesi uğurla davam etdirilir. Bu sahədə qazanılmış nailiyyətlər qürur doğurur. Respublikamızda siyasi, iqtisadi və sosial islahatlar uğurla həyata keçirilir, ölkə iqtisadiyyatı inkişaf etdirilir və əhalinin sosial müdafiəsinin gücləndirilməsi üçün təsirli tədbirlər görülür. Bu gün Azərbaycan, yerləşdiyi bölgədə əsas inkişaf məkanı olmaqla, nəhəng infrastruktur layihələri icra edir. Ölkəmiz Avropanın enerji təhlükəsizliyində son dərəcə vacib faktora çevrilib. Beləliklə, Azərbaycanda bütün istiqamətlərdə böyük inkişafın müşahidə olunması, ölkəmizin bölgədə və dünyada mövqelərini gücləndirməsi ilə müşayiət olunur. Müstəqilliyimizin və ideoloji dayaqlarımızın daha da möhkəmləndirilməsinin, vətəndaş həmrəyliyinin bərqərar olmasının təməlində isə, Azərbaycan dövlətinin milli maraqlarının qorunması və tarixi irsə bağlılıq kimi müqəddəs prinsip dayanır. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizin dinamik inkişafı, sürətli tərəqqisi, həyata keçirilən əzəmətli layihələri, modernləşməsi və vətənimizi dünyaya yeni formada təqdim etməyə imkan yaradan müsbət dəyişikliklər hər birimizi qürurlandırır. Bu məhz müstəqil bir dövlət olaraq Azərbaycanın müstəqil şəkildə dövlət başçısı tərəfindən həyata keçirdiyi siyasətinin nəticəsidir. "Bu gün biz xoşbəxtik ki, müstəqil ölkə kimi, azad xalq kimi yaşayırıq, taleyimiz öz əlimizdədir", - deyən Azərbaycan Prezidenti İlham Əliyev müstəqilliyimizin qorunmasının, möhkəmlənməsinin ən vacib məsələlərdən biri olduğunu qeyd edib: "1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı. Müstəqil Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir və onların niyyətlərini biz həyatda təmin etdik, həyata keçirdik. Əminəm ki, müstəqillik yolunda bizim inkişafımız davamlı olacaq, uğurlu olacaq və Azərbaycanın dövlət müstəqilliyi əbədi olacaq!"

***Zümrüd BAYRAMOVA***

# Azərbaycan Rusiya münasibətləri: regional və beynəlxalq təhlükəsizliyə töhfə

## İlham Əliyev: "Biz bu gün artıq bu münasibətləri müttəfiqlik qismində təkcə de-fakto deyil, həm də de-yure səciyyələndiririk"



Azərbaycan dünyanın bir çox ölkələri ilə yanaşı, Rusiya ilə də əlaqələri daim diqqətdə saxlayır. Azərbaycan və Rusiya arasında müxtəlif sahələri əhatə edən müqavilələr, sazişlər imzalanıb. Bu münasibətlər bu gün yeni müstəvidədir. Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə mütəmadi olaraq keçirdiyi görüşlər, ikitərəfli və beynəlxalq gündəmdə olan əsas mövzularla bağlı müzakirələr bu əlaqələrin genişlənməsinə gətirib çıxarır. Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə vurğulayıb ki, ictimai-siyasi və humanitar sahələrdə Rusiya ilə Azərbaycan arasında siyasi dialoq, fəal parlamentlərarası və regionlararası əməkdaşlıq tənzimlənib. Ticari-iqtisadi, investisiya, elmi-texniki və humanitar əlaqələr, vətəndaş cəmiyyəti təsisatları arasında kontaktlar genişlənir. Təbii ki, Rusiya və Azərbaycanı möhkəm dostluq və əməkdaşlıq ənənələri bir-birinə bağlayır. Dövlətlərin münasibətləri qarşılıqlı faydalı tərəfdaşlıq xarakteri daşıyır, mehriban qonşuluq və bir-birinin marağına hörmət prinsiplərinə əsaslanır.

"Heydər Əliyev və Vladimir Putin Rusiya ilə Azərbaycan arasında münasibətlərin hazırkı səviyyəsinin əsasını qoyublar". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev Moskvada rusiyalı həmkarı Vladimir Putinlə keçirdiyi görüşdə bildirib: "Məhz Sizin 2001-ci ildə Azərbaycana səfərinizdən sonra münasibətlər keyfiyyətcə yeni səviyyəyə yüksəldi və biz bu gün artıq bu münasibətləri müttəfiqlik qismində təkcə de-fakto deyil, həm də de-yure səciyyələndiririk". Ötən ilin əvvəlində Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannamənin imzalanmasını xatırladan Prezident İlham Əliyev onu münasibətlərimizin ruhunu və xarakterini, ölkələrimizin daha sıx qarşılıqlı əlaqələrə səylərini əks etdirən mühüm siyasi sənəd kimi qiymətləndirib.



### GÖRKƏMLİ SİYASİ XADİM HEYDƏR ƏLİYEV ÖLKƏLƏRİN TARİXİNDƏ BİRLƏŞDİRİCİ SİMADIR

Rusiya Prezidenti Vladimir Putin Moskvada Azərbaycan Prezidenti İlham Əliyevlə görüşündə bu il Heydər Əlirza oğlu Əliyevin 100 illiyi bayram edilir deyərək, bildirib ki, Siz həm Sovet İttifaqının, həm də müstəqil Azərbaycanın bu siyasi xadiminə bizim münasibətimizi bilirsiniz. Bu görkəmli siyasi xadim ölkələrimizin tarixində birləşdirici simadır.

Rusiyada Ulu Öndərin yubileyinin layiqincə keçirildiyini vurğulayan Vladimir Putin bildirib ki, Dövlət Dumasında və Federasiya Şurasında sərgilər təşkil edildi, televiziyada sənədli filmlərin nümayişi oldu: "Rusiya Federasiyasının regionlarında da çoxlu tədbirlər oldu. Bu tədbirlər təkcə paytaxtda keçirilmədi, həmçinin Heydər Əliyevin daim xatırlandığı Kazanda, Həştərxanda, Dağıstanda, BAM-da, o cümlədən Moskva-Tında qatarının təntənəli yola salınması və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi BAM-ın tikintisinə kuratorluq edən Heydər Əliyevin adının verildiyi Anqoya stansiyasında da tədbirlər oldu".

### DÖVLƏTLƏRİN MARAQLARINA CAVAB VERƏN MÜTTƏFİQLİK

Xatırlatmaq yerinə düşər ki, Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında 3 iyul 1997-ci il tarixli Müqavilə, Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında dostluq və strateji tərəfdaşlıq haqqında 3 iyul 2008-ci il tarixli Bəyannamə və s. bu əlaqələrin təməlinin möhkəmlənməsində xüsusi əhəmiyyət kəsb edir.

Əlbəttə ki, ikitərəfli münasibətlər Rusiya Federasiyasının və Azərbaycan Respublikasının xalqlarının maraqlarına tam şəkildə cavab verir, regional və beynəlxalq təhlükəsizliyin və sabitliyin təmin edilməsinə töhfə verir. İki ölkənin siyasi, iqtisadi, mədəni, humanitar, təhsil, sosial sahələrdə, eləcə də səhiyyə, gənclər arasında əməkdaşlıq və idman sahəsində yaxınlaşması görülən işlərin məntiqi olaraq vurğulanmalıdır.22 fevral 2022-ci ildə Azərbaycan Prezidenti İlham Əliyev və Rusiya Prezidenti Vladimir Putin Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında Müttəfiqlik qarşılıqlı fəaliyyət haqqında Bəyannamə imzaladılar. Bu Azərbaycan və Rusiyanın münasibətlərinin müttəfiqlik səviyyəsinə yüksəlməsi demək idi. 13 oktyabr 2022-ci ildə İlham Əliyev Astanada Vladimir Putinlə görüş çərçivəsində qeyd etmişdir ki, Azərbaycan və Rusiyanın münasibətləri ən yüksək səviyyəyə - müttəfiqlərin qarşılıqlı fəaliyyəti səviyyəsinə çıxıb.Hal-hazırda iki ölkə arasında müqavilə-hüquqi bazaya 200-ə yaxın dövlətlərarası, hökumətlərarası və regionlararası sazişlər daxildir. Ölkələrimiz arasında siyasi əməkdaşlıq son illər nəzərəçarpacaq dərəcədə canlanıb.

### XALQLAR ARASINDA TARİXİ BAĞLAR

Azərbaycanla Rusiya sıx ticari-iqtisadi münasibətlərə malikdirlər. 2022-ci ilin 10 ayının yekunlarına görə Azərbaycan ilə Rusiya arasında mal dövriyyəsi $2,8 milyard təşkil edib ki, bu da ötən ilin müvafiq göstəricisindən 22,3 faiz çoxdur. Rusiya Azərbaycandan əsasən qeyri-neft məhsulları idxal edir: 2022-ci ilin sentyabrında Rusiya Azərbaycandan $74,6 milyon dəyərində məhsul alaraq qeyri-neft sektoru mallarının ən böyük idxalçıları siyahısında birinci yeri tutub. Öz növbəsində Azərbaycan Rusiyadan geniş çeşiddə məhsullar alır. Belə ki, 2021-ci ildə Rusiyanın Azərbaycana ixracının strukturunda 32,8% ərzaq məhsulları və kənd təsərrüfatı xammalının payına düşüb. Xüsusilə, Azərbaycan tərəfindən alınan buğdanın 95%-dən çoxu Rusiyadan idxal edilib.Azərbaycanla Rusiya arasında münasibətlər, əlaqələr uzun bir tarixi dövrü, yüzillikləri əhatə edir. Bu iki ölkəni, Azərbaycan və rus xalqını təkcə sərhədlər deyil, həm də tarixi, siyasi, mədəni, sosial bağlar bir-birinə bağlayır, birləşdirir. Bu iki xalq və dövlət arasındakı münasibətlər təkcə sərhədlərə dayanan qonşuluqla bağlı deyil, həm də dostluq və əməkdaşlığa əsaslanır.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Azərbaycanın dünyada nüfuzunun növbəti təzahürü

## Prezident İlham Əliyevə ünvanlanan təbrik məktubları ölkəmizin və ölkə Liderinin beynəlxalq miqyasda nüfuzunun artmasını əyani şəkildə təsdiqidir

Dövlət o zaman güclü və qüdrətli, ən əsası sözün əsl mənasında müstəqil olur ki, onun gələcəyini düşünən, atdığı hər addımda dövlət maraqlarını öndə saxlayan Lideri vardır. Məhz bu gün Azərbaycanın müstəqil dövlət kimi mövcudluğu, dünya birliyində layiqli yer tutması, sözünün imzası qədər əhəmiyyəti, sabitlik diyarı kimi nüfuz qazanaraq bütün sahələrdə inkişafı, bir sözlə, yeniliyə əsaslanan inkişaf modeli liderlik amili ilə birbaşa bağlıdır. Hər bir dəyərləndirmə, hadisələrə düzgün qiymət bu günün fonunda keçilən yolun təhlilini bir tələb kimi qarşıya qoyur. Məhz bu gün 105 ili olan 28 May Azərbaycanın Müstəqillik Gününü daha fərqli- Qalib ölkənin, qalib vətəndahları kimi qeyd edirik. Bu gün Azərbaycan Xalq Cümhuriyyətinin varisi olan Azərbaycan dövləti - Qalib Sərkərdə Prezident İlham Əliyevin "Dəmir yumruq" siyasətinin gücü ilə Güclü Ordumuzun rəşadətli əsgər və zabitlərinin birliyi və qəhrəmanlığı ilə xalqımızın müstəqillik arzularını gerçəkləşdirdi. Ali Baş Komandanımız, Prezident İlham Əliyev 28 May - Müstəqillik Günü ilə bağlı paylaşımında dediyi kimi: "Azərbaycan Xalq Cümhuriyyətinin varisi olan bugünkü Azərbaycan dövləti xalqımızın müstəqillik arzularını gerçəkləşdirdi. Əminəm ki, bizim müstəqillik inkişafımız davamlı olacaq və Azərbaycanın dövlət müstəqilliyi əbədi yaşayacaq".

105 il öncə müstəqilliyini elan etmiş Azərbaycan Xalq Cümhuriyyəti Şərqdə ilk demokratik dövlət quruluşu olub və xalqımızın müstəqillik əzmini nümayiş etdirib. Əldə olunmuş müstəqilliyin 23 ay davam etməsinə baxmayaraq, bu müddətdə Azərbaycanda demokratik hüquq və azadlıqlar bərqərar olub, Azərbaycan dili dövlət dili elan edilib, təhsil və mədəniyyətin inkişafına xüsusi diqqət göstərilib, milli ordu və təhlükəsizlik strukturları qurulub. Ümummilli lider Heydər Əliyevin respublikada uğurla gerçəkləşdirdiyi siyasət xalqımızın tarixi-mədəni yaddaşını özünə qaytararaq milli mənlik şüurunu inkişaf etdirdi, azərbaycançılıq məfkurəsi işığında müstəqillik arzularının güclənməsi və yaxın gələcəkdə yenidən həqiqətə çevrilməsinə zəmin yaratdı. Bu gün ümummilli lider Heydər Əliyevin xarici siyasət kursunu novatorcasına, dinamik şəkildə və çox uğurla davam etdirən Prezident İlham Əliyev bu tarixi qələbəni bir daha əbədiləşdirdi.

Bu gün Azərbaycanın qalib Lideri, Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edərək tarixi nailiyyətlər qazanır dünyada getdikcə nüfuzu artan Azərbaycan beynəlxalq münasibətlərdə önəmli rol oynayır, qlobal iqtisadi və humanitar layihələrdə liderlik keyfiyyətləri nümayiş etdirir. Xarici ölkələrin və beynəlxalq təşkilatların rəhbərlərinin 28 May - Müstəqillik Günü münasibətilə Prezident İlham Əliyev cənablarına ünvanlanan təbrik məktubları respublikamızın və onun Liderinin beynəlxalq miqyasda nüfuzunun artmasını əyani şəkildə təsdiqləyir. dünyadakı nüfuzunu bir daha təsdiq edir.



### GÖNDƏRİLƏN TƏBRİK MƏKTUBLARININ HƏR BİRİNDƏ ÖLKƏ BAŞÇISININ DÜNYADAKI NÜFUZUNA DİQQƏT ÇƏKİLİR, AZƏRBAYCAN ETİBARLI TƏRƏFDAŞ KİMİ QİYMƏTLƏNDİRİLİR

Dünyanın aparıcı ölkələrinin, nüfuzlu beynəlxalq təşkilatların rəhbərləri tərəfindən 28 May - Müstəqillik Günü münasibəti ilə Prezident İlham Əliyevə ünvanlanan təbrik məktublarında ifadə edilən fikirlərdə Azərbaycanın yüksək beynəlxalq nüfuza malik olması, regionun lider dövləti olaraq bir sıra mühüm beynəlxalq təşəbbüslərin müəllifi kimi tanınması, səmərəli tərəfdaşlıq münasibətləri ilə beynəlxalq güclər sistemində özünə layiqli yer tutması diqqətə çatdırılır. Bütün bunlarla yanaşı, respublikamızın beynəlxalq münasibətlərdə oynadığı önəmli rol, qlobal iqtisadi və humanitar layihələrdə liderliyi önə çəkilir, dünya ölkələrinin təhlükəsizlik, enerji və demokratik idarəetmə məsələlərində uğurlu səyləri yüksək qiymətləndirilir.

Ulu öndər Heydər Əliyevin siyasi kursunu son 19 ilə yaxın müddətdə bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyevin təkmil, yenilikçi siyasətinin nəticəsində Azərbaycanın istər daxildə, istərsə də beynəlxalq münasibətlər sistemində qazandığı uğurların yol açdığı tarixi Zəfərimiz, məhz Qalib Liderimiz İlham Əliyevin "dəmir Yumruq" siyasəti ilə Güclü ordumuzun qəhrəman əsgər və zabitlərinin rəşadətilə ərazi bütövlüyümüz bərpa oldu, haqq, ədalət qalib gəldi. Və bu gün Azərbaycana olan beynəlxalq baxış, daxildə xalq-Prezident birliyinin, həmrəyliyinin sarsılmazlığı bir daha Heydər Əliyev siyasətinin alternativsizliyinin təsdiqidir. 2003-cü ilin prezident seçkiləri ərəfəsində ulu öndər Heydər Əliyev xalqa etimadın növbəti ünvanını göstərərkən İlham Əliyevə Özü qədər inandığını, gələcəyinə böyük ümidlər bəslədiyini bildirdi. Qazanılmış uğuraların davamlılığını, Azərbaycanın xoşbəxt gələcəyini şərtləndirən əsas amillərdən biri kimi Prezident İlham Əliyevin yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyət olmasını xüsusi vurğuladı. Hər birimiz sonsuz sevinc və iftixar hissi keçiririk ki, bugünkü qalib Azərbaycan həmin inamın, etimadın, liderliyin təqdimatıdır.

### BUGÜNKÜ QALİB AZƏRBAYCAN HƏMİN İNAMIN, ETİMADIN, LİDERLİYİN TƏQDİMATIDIR

Bəli, son 19 ildə Azərbaycanda həyata keçirilən mühüm tədbirlər beynəlxalq birliyin Azərbaycana inamının, etimadının təzahürü, ölkəmizin və Azərbaycan Prezidenti İlham Əliyev cənablarının qlobal miqyasda nüfuzunun göstəricisidir. Və bu gün Azərbaycan dünyada özünəməxsus milli inkişaf modeli ilə tanınır. Prezident İlham Əliyev bildirir ki, qarşımızda duran strateji vəzifə Azərbaycanın müstəqilliyini daha da möhkəmləndirmək və bütün sahələr üzrə onu dünyanın inkişaf etmiş, rəqabətədavamlı ölkələri sırasına çıxarmaqdır. Və bu gün Prezident İlham Əliyev cənablarına ünvanlanan təbrik məktubları da dövlət başçımızın son 19 ildə uğurla, qətiyyətlə Azərbaycanın haqq, ədalət təfdarı olduğunun göstəricisidir.

Və Azərbaycan Prezidentinə ünvanlanan məktublarda da bütün bu reallıqlar yer alır. O cümlədən, ABŞ Prezidenti Cozef Baydenin cənab Prezident İlham Əliyevə Müstəqillik Günü münasibətilə təbrik məktubu ünvanlaması Amerikanın Azərbaycanı regionda əhəmiyyətli siyasi fiqurlardan biri kimi qiymətləndirməsindən xəbər verir. Bayden regional sülh məsələlərinin həlli istiqamətində dövlətimizin səylərini dəstəklədiyini ifadə edən məktubu bir daha beynəlxalq aləmin də Qafqazda davamlı sülhə maraqlı olduğunu göstərir və regionun firavan və dinc gələcəyi naminə Ermənistan və Azərbaycan arasında barışığın təşviq olunmasına çağırışların olunmasını vurğulayır. Çünki ABŞ Administrasiyası aydın görür ki, güclü və inkişaf edən Azərbaycan həm də Cənubi Qafqaz - Xəzər dənizi regionunda Avropanın enerji təhlükəsizliyinin təminatında önəmli rol oynayan enerji layihələrinin reallaşdırılması və dayanıqlılığının təmin edilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Azərbaycan rəhbərliyi ilə həyata keçirilən bütün enerji layihələri enerji təhlükəsizliyini, enerji mənbələrinin şaxələndirilməsini və bütün iştirakçı tərəflərə fayda verilməsini təmin edir. Və Cozef Baydenin də qeyd etdiyi kimi Azərbaycan daima beynəlxalq antiterror əməliyyatlarında fəal iştirak edib.

Həmçinin, Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon, Xorvatiya Respublikasının Prezidenti Zoran Milanoviç, Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisinin, Pakistan İslam Respublikasının Prezidenti Arif Alvinin, Avstriya Respublikasının Federal Prezidenti Aleksander Van der Belen, Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru İqor Babuşkin, Müstəqil Dövlətlər Birliyinin Baş katibi Sergey Lebedevin, Qabon Respublikasının Prezidenti Ali Bonqo Ondimbanın, İspaniyanın Kralı VI Felipenin, Nikaraqua Respublikasının Prezidenti Daniel Orteqa Saavedra və Nikaraqua Respublikasının vitse-prezidenti Rosario Muriyonun, Çin Xalq Respublikasının Sədri Si Cinpinin və başqalarının Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə dövlətimizin başçısına ünvanlanan təbrik məktublarında ölkəmizin dünya arenasında yüksək nüfuz qazanması, beynəlxalq gündəlikdəki çoxsaylı mühüm məsələlərin həllində fəal rol oynaması, regional sülh və sabitliyin möhkəmləndirilməsi istiqamətində birgə əməkdaşlıq münasibətlərinin qurulması ilə bağlı nəzərəçarpan uğurlar əldə etməsi öz ifadəsini tapıb. Bütün bu dəyərləndirilmələr isə təbii ki, Prezident İlham Əliyevin beynəlxalq uğurlu siyasətinə, səmərəli fəaliyyətinə verilən yüksək qiymətin ifadəsidir.

***RƏFİQƏ KAMALQIZI***



## "Baydenin məktubu tarixi əhəmiyyət daşıyır"

"ABŞ prezidenti Co Bayden super dövlətin prezidenti olduğuna görə onun Azərbaycanın dövlət başçısına təbrik məktubu ünvanlaması sıradan bir hadisə deyil. Çünki Bayden heç də hər dövlətə və dövlət başçısına məxsusi təbrik məktubları göndərmir. Onun bu addımı Azərbaycan dövlətinin və onun başçısının beynəlxalq siyasətdə oynadığı rola münasibətini göstərir". Bu sözləri SİA-ya açıqlamasında siyasi şərhçi Aydın Quliyev deyib.

Onun sözlərinə görə, hər şeydən öncə Bayden bu məktubla Azərbaycan Prezidentinin siyasətinə uyğun fəaliyyətini nümayiş etdirir: "Eyni zamanda, Co Bayden Azərbaycan dövlətinin cümhuriyyət ənənələrinə və respublika üsul idarəsinə hörmətlə yanaşmasını təqdirəlayiq hesab edir. Onu da deyim ki, Bayden bu məktubla Azərbaycan dövlətinin müstəqilliyinə və müstəqil bir dövlət kimi öz varlığını qorumasına rəğbətlə yanaşdığını bir daha ifadə etdi. Bu məktubda Azərbaycanın regional və beynəlxalq siyasətinin ən mühüm istiqamətləri haqqında qısa da olsa, fikirlərə rast gəlirik. İlk növbədə Azərbaycanın Avropa enerji təhlükəsizliyində oynadığı rola Baydenin yüksək qiymət verməsi təqdirəlayiqdir. Bu o deməkdir ki, həqiqətən Azərbaycanın enerji təhlükəsizliyində oynadığı böyük rolu dünya dövlətləri də dəyərləndirir".

A.Quliyev sözlərinə davam edərək bildirib ki, Bayden bölgədə sülhün və təhlükəsizliyin möhkəmləndirilməsində Azərbaycanın roluna qiymət verməklə bu siyasəti qəbul etdiyini göstərir: "Sətiraltı da olsa bölgədə sülhün bərqərar olmasında Azərbaycanın səylərini başa düşdüyünü və ona dəstək verdiyini ifadə edir. Eyni zamanda, bu məktubda Azərbaycanın beynəlxalq terrorizmə və narkotikaya qanunsuz miqrasiyaya qarşı mübarizədə dünya qüvvələri ilə əməkdaşlığına Baydenin açıq-aşkar simpatiyasını gördük. Təbii ki, Bayden Azərbaycanın həm də çox mürəkkəb geosiyasi məkanda uğurlu siyasət apardığını ifadə edir. Bayden ad çəkməsə də, bu bölgədə Azərbaycanın suverenliyi və müstəqilliyi üçün nə qədər böyük təhlükələrin mövcud olduğuna da işarə vurur. Baydenin məktubundan belə başa düşülür ki, o Azərbaycanın bir tərəfdən düşmən Ermənistan, digər tərəfdən isə Rusiya və İrandan ibarət olan bir bölgədə nə qədər uğurlu siyasət apardığının necə çətin olduğunu anlayır. Baydenin məktubu tarixi bir məktubdur və Azərbaycanın nailiyyətlərini özündə əks etdirir. Lakin düşünürəm ki, Azərbaycanın 44 günlük müharibədə tarixi ərazi bütövlüyünü bərpa etməsi və hətta düşmən tərəfindən bu ərazi bütövlüyünün qəbul edilməsi də bu məktubda ifadə olunsaydı, daha yaxşı olardı".

***Ləman Əlizadə***

# "Moskva görüşü Azərbaycanın diplomatik uğurlarının davamıdır"

Azərbaycanın tarixi Zəfərinin reallıqları fonunda artan nüfuzu, möhkəmlənən mövqeyi göz önündədir. Hər bir ölkənin siyasi müstəqilliyinin möhkəmlənməsində iqtisadi tərəqqi əhəmiyyətli rol oynayır. Mayın 25-də Moskvada keçirilən Ali Avrasiya İqtisadi Şurasının geniş tərkibdə iclası istər üzv dövlətlərin, istərsə də tədbirə qonaq qismində qatılan Azərbaycanın iqtisadi imkanlarının təqdimatında öz sözünü dedi. Dövlət başçısı İlham Əliyev Azərbaycanın quruma üzv olmasa da ötən 30 ildə Ermənistan istisna olmaqla, Avrasiya İqtisadi Birliyinin üzvləri ilə əməkdaşlığının uğurla inkişaf etdiyini bildirdi. İkitərəfli əlaqələrin inkişafı üçün geniş imkanların mövcudluğunu ölkəmizin bu illər ərzində əldə etdiyi sosial-iqtisadi göstəricilər də təsdiqləyir. Prezident İlham Əliyev iclasdakı çıxışında bir daha diqqəti Azərbaycanın xalqlar arasında körpü rolunu oynayan tranzit imkanlarına, həyata keçirilən layihələrin uğurlu icrasına yönəltdi.

Reallıq budur ki, Azərbaycan həm enerji, həm də nəqliyyat layihələrinin icrasını uğurla həyata keçirməklə bu körpünün daha da möhkəmlənməsinə yeni əlavələr edir. Bunun üçün bəzi statistik rəqəmlərə nəzər salmaq istərdik. Ötən il Azərbaycanın Avrasiya İqtisadi Birliyi ilə əmtəə dövriyyəsi 31 faiz artıb. Bu ilin yanvar-aprel aylarında qarşılıqlı ticarətin həcmi daha 38 faiz artıb. Ötən il Avrasiya İqtisadi Birliyinə üzv ölkələrin Azərbaycanın xarici ticarət dövriyyəsində payı 9 faizə yaxın olub. Azərbaycanın Şərq-Qərb və Şimal-Cənub nəqliyyat yollarının coğrafi kəsişməsində yerləşməsi, ölkəmizin nəqliyyat-logistika infrastrukturu bütün istiqamətlərdə daşımaları həyata keçirməyə imkan verir. Azərbaycan Xəzərdə 50 gəmidən ibarət ən böyük ticarət donanmasına malikdir. Bakıda artıq bir neçə ildir bütün növ gəmilər hazırlayan müasir gəmiqayırma tərsanəsi fəaliyyət göstərir. Azərbaycanın gəmiqayırma imkanları, həmçinin Xəzərdəki qonşularımıza da təqdim olunub. Rəqəmlərə qısa baxış bunu deməyə əsas verir ki, Azərbaycanın dayanıqlı inkişafı üçün geniş imkanlar mövcuddur və bu, əməkdaşlığın coğrafiyasının genişlənməsində həlledici rol oynayır.



AZƏRTAC xəbər verir ki, bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə bildirib.

Vüqar Rəhimzadə qeyd edib ki, dövlətimizin başçısı İlham Əliyev çıxışında bu məqama xüsusi diqqət yönəldib ki, ölkəmiz tam iqtisadi müstəqilliyə nail olub. Bu da müstəqil xarici siyasət kursunu aparmaq üçün mühüm amildir. Azərbaycanın xarici siyasət uğurları davamlıdır. Dövlətimizin ədalətə və beynəlxalq hüquqa əsaslanan xarici siyasəti ona daim uğurlar qazandırır. Azərbaycanın ayrı-ayrı dövlətlərlə istər ikitərəfli, istərsə də beynəlxalq təşkilatlar çərçivəsində əlaqələrinin yüksələn xətt üzrə inkişafı reallıqdır. Bunu qarşılıqlı səfərlər, hər bir ölkənin malik olduğu imkanlara söykənərək yeni prioritetlərin müəyyənləşdirilməsinə və əlaqələrin genişlənməsinə xidmət edən sənədlərin say tərkibi də təsdiqləyir. Azərbaycan 4 ildir 120 dövləti öz sıralarında birləşdirən Qoşulmama Hərəkatına uğurla sədrlik edir. Ölkəmizin quruma sədrlik müddətinin bu il üçün uzadılması təbii ki, uğurlu siyasətimizin, Azərbaycanın daim ədalətin və beynəlxalq hüququn yanında olmasının nəticəsidir.

YAP Xətai rayon təşkilatının sədri diqqəti iclas çərçivəsində aparılan müzakirələrdə Prezident İlham Əliyevin Ermənistanın baş naziri Nikol Paşinyana diplomatiya dərsi keçməsinə yönəldib. Bildirib ki, dövlət başçısı İlham Əliyev "Mənim sözlərimdə ərazi iddialarının olmasını görmək üçün xüsusi canfəşanlıq etmək və ya güclü fantaziyaya malik olmaq lazımdır" söyləyərək Nikol Paşinyana bu dərsi keçdi ki, "dəhliz" sözü heç də kiminsə ərazisinə göz dikmək demək deyil. Azərbaycan Prezidenti diqqətə çatdırdı ki, bu, beynəlxalq termindir və düşünürəm, beynəlxalq terminologiya ilə tanış olan insanlar yəqin ki, ona bu gün Ermənistanın baş naziri kimi məna verməzdilər. Ermənistanın rəsmən Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıdığını nəzərə alsaq, hesab edirəm ki, sülh sazişinə nail olmaq üçün imkanlar var.

Vüqar Rəhimzadə onu da əlavə edib ki, Ermənistanın baş naziri qeyri-ciddi, əsassız fikirləri ilə hər hansı bir tribunadan Azərbaycanı ittiham etməyə çalışsa da hər dəfə dövlət başçısı İlham Əliyevin reallıqları özündə əks etdirən, təkzibolunmaz faktlara söykənən, ən əsası müstəqil siyasətimizin nümayişi olan diplomatik cavabı ilə qarşılaşıb. İki ildən artıqdır ki, sülh müqaviləsinin imzalanması təklifi masa üzərindədir. Ermənistanın baş naziri sülh müqaviləsinin imzalanması prosesini uzatmaq üçün nə qədər cəhdlər göstərsə də daim fakt qarşısında qalmasından dərs çıxarmaq istəmir, yenə də havadarlarına arxalanaraq ümidlərlə yaşayır. Cənab İlham Əliyevin "Zənnimcə, kürsüdən əsası olmayan ittihamlar üçün istifadə etmək lazım deyil" mesajı da Ermənistanın baş nazirinə tutarlı cavab oldu. Görünür, Nikol Paşinyan 30 illik işğal dövründə quraşdırdıqları yalanlarla heç nəyə nail ola bilmədiklərini unudub. Təbliğat real faktlara, tarixi həqiqətlərə söykənəndə uzunömürlü, eyni zamanda, qəbul edilən olur. Ermənistan rəhbərinin sözügedən toplantıda iştirakçıların diqqətinə yalanları, Azərbaycanın Laçın-Xankəndi yolunda nəzarət-buraxılış məntəqəsini yaratmasını öz maraqlarına uyğun çatdırması bir daha müstəqilliyi formal xarakter daşıyan bir dövlət üçün ədalət və beynəlxalq hüquq deyilən məfhumların olmadığını sübut etdi. Reallıq budur ki, Azərbaycan heç bir dəhlizi bloklamayıb. Laçın-Xankəndi yolu açıqdır. Ermənistan və Azərbaycan sərhədində bütün beynəlxalq normalara uyğun olaraq nəzarət-buraxılış məntəqəsi qoyulub. Bu nəzarət-buraxılış məntəqəsi Rusiya sülhməramlı kontingentinin postundan 20 metr aralıda yerləşir. Bu gün həmin nəzarət-buraxılış məntəqəsindən erməni milliyyətindən olan Azərbaycan vətəndaşları və Xankəndi şəhərindən təcili yardım aavtomobilləri keçir.

"Ümumiləşdirilmiş şəkildə qeyd etsək, Moskva görüşü Azərbaycanın diplomatik uğurlarının davamıdır. Azərbaycan ədalətə və beynəlxalq hüquqa əsaslanan iddialarını tam şəkildə təmin etdi", - deyə V.Rəhimzadə vurğulayıb.

# Azərbaycanda səsvermə hüququ olan 6 milyon 334 min 178 şəxs var

Azərbaycan Respublikası Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq, cari il yanvarın əvvəllərindən etibarən ölkə üzrə vahid seçicilər siyahısının tərtib edilərək dəqiqləşdirilməsinə başlanılıb, təqribən beş ay ərzində ardıcıl və sistemli şəkildə həyata keçirilən əhatəli prosesdən sonra 2023-cü il üzrə daimi seçici siyahılarının hazırlanmasına yekun vurulub. SİA xəbər verir ki, seçki qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada hər ilin əvvəlindən daimi seçici siyahıları müvafiq icra hakimiyyəti orqanları və bələdiyyə qurumu başçılarının, hərbi hissə komandirlərinin aktiv seçki hüququna malik olan seçicilər haqqında təqdim etdikləri məlumatlar əsasında məntəqə və dairə seçki komissiyaları tərəfindən tərtib olunduqdan sonra Mərkəzi Seçki Komissiyasına (MSK) təqdim edilməlidir. Bununla bağlı müvafiq işlər görüldükdən sonra seçici siyahıları may ayının 30-dək müvafiq seçki komissiyaları tərəfindən təsdiqlənməli və dövlət avtomatlaşdırılmış informasiya sistemindən də istifadə olunmaqla ictimailəşdirilməlidir. Builki daimi seçici siyahılarının tərtib edilib dəqiqləşdirilməsi də Seçki Məcəlləsinin yuxarıda vurğulanan tələblərinə uyğun gerçəkləşdirilib.



Siyahıların tərtib edilib dəqiqləşdirilməsinə aşağı seçki komissiyalarının otuz səkkiz mindən artıq üzvü cəlb olunub və bütün proses boyunca Daxili İşlər Nazirliyi və Ədliyyə Nazirliyinin müvafiq orqanları, yerli icra strukturları və bələdiyyə qurumları ilə sıx əməkdaşlıq edilib. Bu müddət ərzində MSK-nın 115 nömrəli qaynar xətti və internet səhifəsindəki onlayn müraciət imkanı daim seçicilərin ixtiyarında olub, rəqəmsal platformalarda seçiciləri siyahılarda adlarını yoxlamağa dəvət edən posterlər yerləşdirilib və bütün bunlar görülən işlərin səmərəliliyinin daha da artırılmasında önəmli rol oynayıb. Həmişə olduğu kimi, bu il də siyahıların tərtib edilərək dəqiqləşdirilməsində informasiya-kommunikasiya texnologiyalarının nailiyyətlərindən və texniki imkanları daha da təkmilləşdirilən xüsusi proqram təminatlarından geniş istifadə edilməsi prosesin bütünlüklə effektiv aparılmasına və seçici siyahılarının yüksək standartlara uyğun tərtib və çap olunmasına əhəmiyyətli töhfələr verib.

2023-cü il mayın 26-da MSK üzvləri media təmsilçilərinin də iştirakı ilə Komissiyanın inzibati binasında vahid seçicilər siyahısının yenidən tərtib edilmiş variantına baxış keçirilib və siyahıların saxlanma şəraiti ilə tanışlıq olub. Məlumat verilib ki, vahid seçici siyahılarının yenidən tərtib edilməsi, yoxlanılması və dəqiqləşdirilməsində fasiləsiz onlayn rejimdə fəaliyyət göstərən dövlət avtomatlaşdırılmış informasiya sisteminin yaratdığı imkanlardan geniş istifadə edilib. "Seçkilər" informasiya şəbəkəsi üzərindən həyata keçirilən interaktiv ani məlumat mübadiləsi seçici siyahıları ilə bağlı görülən işləri daha da sürətləndirib, seçici siyahılarına daxil edilən seçicilərin məlumatlarının orfoqrafik təftişi, təkrar və oxşar seçici məlumatlarının hərtərəfli təhlil edilərək müvafiq addımların atılması, nöqsanların aradan qaldırılması, o cümlədən seçici siyahılarının keyfiyyətlə hazırlanması və çap olunmasını təmin edib.

Seçici siyahılarının çapı və saxlanması şəraiti ilə tanışlıqdan sonra Məzahir Pənahovun sədrliyi ilə MSK-nın iclası keçirilib. İclasda 2023-cü ilin daimi seçici siyahılarının yenidən tərtib edilməsi, təsdiqi və ictimailəşdirilməsi məsələsinə baxılıb. Aparılan geniş müzakirələr zamanı Komissiya üzvləri bütün digər vasitələrlə bərabər, informasiya-kommunikasiya texnologiyalarının imkanlarından da faydalanmaqla siyahıların dəqiqləşdirilməsi prosesinin və görülən işlərin daha da təkmilləşdirildiyini, səmərəliliyin yüksəldiyini xüsusi qeyd ediblər.

İclasda cari ilin əvvəllərindən may ayının sonunadək reallaşdırılan irimiqyaslı fəaliyyət barədə ətraflı məlumat verilib. Sədr M.Pənahov dəqiqləşdirmə prosesinə yaxından köməklik göstərən Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, yerli icra hakimiyyəti orqanları və digər aidiyyəti qurumlara təşəkkürünü bildirib.

Komissiyanın iclasında 2023-cü ilin daimi seçici siyahılarının tərtib edilməsi və dəqiqləşdirilməsi işi başa çatmış hesab edilərək, siyahıların məntəqə və dairə seçki komissiyaları tərəfindən təsdiq olunması üçün aidiyyəti üzrə dairə seçki komissiyalarına göndərilməsinə, tərtib edilmiş seçici siyahılarının qanunvericiliklə müəyyənləşdirilmiş qaydada və müddətdə təsdiq olunması işinin müvafiq dairə seçki komissiyalarına həvalə edilməsinə, Azərbaycan Respublikası üzrə seçicilərin daimi siyahısının dövlət avtomatlaşdırılmış informasiya sistemi vasitəsilə tərtib edilərək, Seçki Məcəlləsinin tələbləri nəzərə alınmaqla təsdiqləndikdən sonra Komissiyanın internet saytında yerləşdirilməklə ictimailəşdirilməsinə qərar verilib.

Məlumat üçün qeyd edək ki, dəqiqləşdirmə prosesinin sonunda ölkə üzrə vahid seçicilər siyahısına 6334178 seçici daxil edilib ki, onların da 47,44 faizi kişi, 52,56 faizi isə qadınlardır. İclasda, həmçinin MSK-nın 12 aprel 2023-cü ildə keçirilmiş iclasının protokolu təsdiq olunub və bir sıra seçki dairələri üzrə dairə seçki komissiyalarının tərkibində dəyişikliklər edilib.

## Erməni diversantların dövlət sərhədini yarıb keçmək cəhdinin qarşısı alındı

May ayının 26-da Azərbaycan-Ermənistan dövlət sərhədinin Zəngilan rayonu ərazisindən keçən hissəsində Ermənistan Silahlı Qüvvələrinin təxribat-diversiya qrupu tərəfindən Azərbaycan Respublikasının dövlət sərhədinin pozulması cəhdinin qarşısı alınıb. Bu barədə AZƏRTAC-a Dövlət Sərhəd Xidmətinin Mətbuat Mərkəzindən məlumat verilib.



Sərhəd-döyüş məntəqəsində xidmətdə olan hərbi qulluqçuların sayıqlığı nəticəsində təxribat-diversiya qrupunun hərəkəti vaxtında aşkarlanaraq zəruri tədbirlər görülüb və nəticədə Ermənistan Silahlı Qüvvələrinin 2 hərbi qulluqçusu saxlanılıb.

Diversiya qrupunun digər üzvləri ərazinin mürəkkəb relyefə malik olmasından istifadə edərək geri qaçıblar. Əməliyyat şəraiti nəzarətdə saxlanılır.

# Gender bərabərliyinin təminatı öz aktuallığını qoruyur

***Sağlam ailə institutunun inkişafı birinci növbədə cəmiyyətdə qadın və kişilərin hüquqi, sosial, mənəvi baxımdan bərabərliyindən asılıdır. Məhz ictimai həyatın siyasi, iqtisadi, mədəni və digər sahələrində kişi və qadınların bərabərliyi elə gender bərabərliyidir. Gender bərabərliyinə nail olmaq üçün dünyada çoxlu sayda qanunlar qəbul olunub, beynəlxalq norma və prinsplər mövcuddur və hələ də müvafiq addımlar atılmaqdadır, amma gender bərabərliyinin təminatı problemli məsələlər sırasındadır və bu baxımdan da öz aktuallığını qoruyur.***



Bəşər tarixində qadınlara əsrlər boyu cəmiyyətdə ikinci dərəcəli kimi baxılmasını hər kəs çox yaxşı bilir. Hətta qabaqcıl fikir adamlarının belə baxışların əleyhinə olduğu barədə də tarixi məlumatlar var. Dünyanın ən qabaqcıl, inkişaf etmiş ölkələrində əsrlər boyu qadınlara ictimai həyatın siyasi, iqtisadi, mədəni və digər sahələrində yer verilmədiyi, kişi və qadınlar arasında bərabərliyin olmadığı barədə dünya tarixindən öyrənmişik və bilirik. Onu da bilirik ki, bu gün dünyanın ən inkişaf etmiş ölkələrindən olan Fransada, Avropa ölkələri arasında ən sonuncu olaraq qadınlara seçki hüququ verilmiş oldu.

Gender bərabərliyinin təminatı istiqamətində bütün dünyada normativ hüquqi sənədlər, müvafiq qanunlar mövcuddur və bu bərabərliyin təmin olunması, eləcə də mühafizə edilməsi həmin qanunlarla reallaşdırılır. Məsələ burasındadır ki, müsəlman dünyasında qanunlar olmadan, islam əxlaqı prinsplərinə uyğun olaraq, qadınlara xüsusi diqqət və qayğı ilə yanaşılıb, islam dininin yenicə təşəkkül tapdığı dövrdən başlayaraq qadınların fikirləri, mövqeyi nəzərə alınıb. Bir zamanlar insanların qız övladlarını arzulanmadıqları dövrdə, onların körpə vaxtında tələf edikləri zamanlarda islam dini buna qarşı çıxıb və bunun qarşısı qətiyyətlə alınıb. Əslində, islam əxlaqı bəşəriyyəti xilas edib desək belə haqlıyıq, çünki bu gün elmin inkişafı, innovasiyalar sayəsində dünyanın ən inkişaf etmiş ölkələrində reproduktiv əməliyyatlar aparılaraq, ailə planlaşdırması edilərək arzulanan cinsdən olan uşağın dünyaya gətirilməsinin mümkünlüyü fonunda, övladlar arasında fərq qoymayan həmin o islam əxlaqı əsl nümunəyə çevrilib. Məhz bu nümunə övladlar arasında fərq qoyulmasının, kişi və qadın arasında bərabərsizliyin qarşısının alınmasında kifayət qədər təsirli oldu, amma etiraf etmək lazımdır ki, hələ də dünyada gender məsələlərinin həlli, bərabərliyin təminatı baxımından problemlər mövcuddur və bu məsələnin öz aktuallığını qoruması da bu səbəbdəndir.



Azərbaycanda gender bərabərliyinin təminatı baxımından hər birimizin fəxr etməyə haqqımız çatır. Çünki ölkəmizdə gender bərabərliyi ənənəsi digər ölkələrlə, hətta inkişaf etmiş ölkələrlə müqaisədə daha qədim dövrə təsadf edir. Azərbaycan qadınının savadlanması, ictimai həyata xeyriyyəçi kimi qatılması 19-cu əsrə təsadüf edir. Bunun ardınca isə 20-ci əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyəti Şərqdə qadınlara seçki hüququ verən ilk respublika olaraq tarixə yazılıb və bu mənada Azərbaycan qadını hətta avropalı və amerikalı həmcinslərini qabaqlamış olub. Çünki həmin dövrdə belə bir bərabərlik nəinki Şərq, hətta Avropa ölkələrinin qadınları üçün əlçatmaz sayılırdı və bizdə olan bərabərliyə həsəd aparmaları da başadüşüləndir.

Azərbaycan öz müstəqilliyini yenidən bərpa etdikdən sonra, xüsusilə də, xalqımızın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından etibarən ölkəmizdə sabitliyin bərqərar olunması qadınların da ictimai-siyasi həyatda fəaliyyətinin artırılmasına geniş spektrda yol açmış oldu. 1998-ci ildə Ümummilli Lider Heydər Əliyev, indiki Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi olaraq fəaliyyət göstərən Qadın Problemləri üzrə Dövlət Komitəsinin yaradılması barədə "Azərbaycanda qadınların rolunun artırılmasına dair tədbirlər haqqında" Sərəncamlar, 2000-ci ildə isə "Dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" fərman imzalayıb, hansı ki, bu fərman bütün dövlət strukturlarında qadınların təmsil olunma faizinin kişilərlə eyni səviyyədə olmasını nəzərdə tutur. Məhz qadınların, Azərbaycan qadınının ictimai-siyasi həyatda fəaliyyətinin artırılması üçün dövlət səviyyəsində ölkəmizdə bir sıra qanun və qərarlar qəbul edildiyi hamıya məlumdur. Bütün dünya ictimaiyyətinə də bəllidir ki, Azərbaycanın Konstitusiyası kişilərə və qadınlara eyni hüquqları verib və gender bərabərliyinin təmin olunması üçün ölkəmizdə hüquqi əsas mövcuddur. O da sirr deyil ki, gender bərabərliyinin təmin olunması üçün Azərbaycan 1995-ci ildə BMT-nin "Qadınlara qarşı ayrıseçkiliyin bütün növ formalarının ləğv edilməsi haqqında" konvensiya kimi bir sıra beynəlxalq konvensiyalara da qoşulub.

İstər idarəçilik, istər qanunvericilik, istər hüquq-mühafizə, istər ədliyyə orqanları olsun, ən məsul vəzifələr daşıyan Azərbaycan qadını bu gün ölkəmizdə elə bir fəaliyyət sferası yoxdur ki, orada təmsil olunmasın. Ötən əsrin əvvəllərindən etibarən bütün ictimai proseslərdə qadınların kişilərlə bərabər çalışmaq ənənəsi yenə də davam edir, hansı ki, həyatın bütün sahələrində biz bunu müşahidə etməkdəyik. Hətta istənilən vəzifədə, dövlət qulluğunda və hərhansı sahədə desək, kişilərlə bərabər çalışan qadınlar bu vəzifələrin, tapşırıqların, üzərlərinə düşən işin öhdəsindən layiqincə gəlirlər. Bu gün Milli Məclisdə belə çoxlu sayda qadın millət vəkillərimiz, deputatlarmız var ki, onlar öz fəaliyyətləri ilə kişilərdən geri qalmırlar və dövlətimiz də bunun üçün şərait yaradır.

Sözsüz ki, qadınların cəmiyyətdə rolunun artmasında, onların kişilərlə bərabər ictimai həyatın bütün sahələrində çalşmasında, bir sözlə, gender bərabərliyinin təmin olunmasında dövlətimizin rolu danılmazdır. Əvvəla ona görə ki, Azərbaycan dövləti buna şərait yaradıb, imkanları genişləndirib və hansısa bir sahədə qadınların çalışması üçün qadağa yoxdur. Digər tərəfdən də, ölkəmizdə gender məsələlərinə olduqca həssas yanaşıldığı göz önündədir və kişilərlə qadınların bərabərliyi hər zaman diqqət mərkəzindədir. Azərbaycan qadınının təhsil ocaqlarında çalışması, elmi kəşflər etməsi, elmin, mədəniyyətin inkişafına töhfələr verməsi, ölkəmizin milli maraqlarının müdafiəsində, idman yarışlarında Azərbaycanı təmsil etməsi, yetərincə diplomat qadınlarımızın olması və idmançı qadınlarımızın bayrağımızı ölkə hüdudlarından kənarda da yüksəklərə qaldırması və digər faktlar onu deməyə əsas verir ki, gender bərabərliyinin qorunması istiqamətində uğurlu nəticələrimiz var və gələcəkdə də bu bərabərliyin qorunacağı üçün əsaslı zəmin yaradılıb.

***İnam Hacıyev***



**HÜQUQŞÜNAS AÇIQLADI**

# Fərdi evlərin sığortalanması vacibdir?

“Fərdi evlərin sığortalanması ilə bağlı prosedur bütün müasir dövlətlərdə həyata keçirilir. Vətəndaşlar bir çox hallarda mülklərini, hətta şəxsi əşyalarını belə sığortalayır”. Bu sözləri SİA-ya verdiyi açıqlamasında hüquqşünas Səadət Bənənyarlı deyib.



Onun sözlərinə görə, bu cür addımlar gələcəkdə baş verə biləcək potensial təhlükələrin qarşısına keçmək niyyəti ilə atılır: "Məsələn, ABŞ-ın rəsmi ştatları, Avropa ölkələrində insanlar şəxsi mülklərini mütləq sığortalayır. İnsanlar bu yolla özlərinə dəyən zərəri azaltmış olurlar. Bu baxımdan bu qərar çox müsbət haldır. Lakin bu sığortaların spesifik halları var. Sığortlanma, xüsusən də regionlardakı fərdi evlərin sığortlanması çox vacibdir. Ona görə ki bölgələrimizdə tez-tez tufanlar, yağışlar, dolu yağışları olur. Bu cür təbiət hadisələrində dəyən ziyanı minimala endirmək üçün təkcə fərdi evləri yox, əkin sahələrini də sığortlamaq çox vacibdir. Ümumilikdə bu qərarı çox müsbət dəyərləndirirəm, çünki fərdi evlərin sığortalanması prosedurası birbaşa əhalinin öz xeyrinə olan bir hadisədir".

***Fazil Hənifəyev***

# Heydər Əliyev-100

# DAHİ ŞƏXSİYYƏTƏ hədsiz ehtiram




**Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2023-cü ilin "Heydər Əliyev ili" elan olunması və Ulu Öndərin 100 illik yubileyi münasibəti ilə ölkəmizdə, eləcə də onun hüdudlarından kənarda silsilə tədbirlər davam etdirilir. Azərbaycan xalqının Ümummilli Lideri, Böyük Dövlət Xadimi Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısındakı tarixi xidmətləri Onun fəaliyyətinin bütün mərhələlərini əhatə edir.**

Ümummilli Liderin xalqımız qarşısındakı ən böyük xidmətlərindən biri Azərbaycan dövlətçiliyinin xilası və bunun sayəsində ölkənin siyasi tarixində yeni bir mərhələnin açılmasıdır. Böyük dövlət xadimi Heydər Əliyev Azərbaycanı vətəndaş müharibəsindən - qarşıdurmadan, tənəzzül və məhv olmaq təhlükəsindən xilas edərək dirçəliş yoluna çıxardı. Prezidentliyi dövründə mədəniyyətə və təhsilə, o cümlədən beynəlxalq əməkdaşlığın təşviqinə böyük önəm vermişdir.

Müstəqil Azərbaycanın demokratik inkişaf yolunda əmin addımlarla irəliləməsini təmin edərək, dövlətin hüquqi əsaslarının gücləndirilməsi, müasir dövlətçilik sisteminin bərqərar edilməsi üçün möhkəm hüquqi baza yaradılmasına nail oldu. Bunlarla yanaşı, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu praqmatik və balanslaşdırılmış xarici siyasət kursu nəticəsində Azərbaycanın beynəlxalq əlaqələri genişlənməyə başladı. Ölkəmiz beynəlxalq arenada müstəqil dövlət kimi tanındı, ikitərəfli və çoxtərəfli səmərəli xarici əlaqələr quruldu. Dünyada böyük siyasətsi kimi tanınan, müstəqil Azərbaycan dövlətinin banisi Heydər Əliyevin 100 illik yubileyi münasibətilə dünyanın tanınmış simaları -prezidentləri, siyasi-ictimai xadimləri tərəfindən Azərbaycan Prezidenti İlham Əliyevə ünvanlanan təbriklər Böyük şəxsiyyətə olan ehtiram, məhəbbət öz ifadəsini tapıb. "Bu əlamətdar günlər atanızın xatirəsini yad etmək və onun yolu ilə gedərək qazandığınız nailiyyətlərə nəzər yetirmək üçün gözəl fürsətdir. Azərbaycanın müdrik lideri kimi, Siz atanızın uğurlarını artıraraq ölkənizi tolerantlığın, beynəlxalq ictimaiyyət tərəfindən dinlərarası əməkdaşlığın yüksək ehtiram göstərildiyi mərkəzə çevirmisiniz. İsrail ilə Azərbaycan arasında güclü münasibətlərin əsasını Sizin atanız qoymuşdur. Bu il Siz onun müdrik siyasətini davam etdirərək Təl-Əvivdə səfirlik açdınız. Bütün bu nailiyyətlərə görə Sizi ürəkdən təbrik edir, dost Azərbaycana davamlı uğurlar arzu edirəm", - deyə ABŞ-ın Etnik Anlaşma Fondunun təsisçisi və prezidenti Ravvin Mark Şnayer təbrikdə qeyd edib.

## "MİLLƏTİN BİRLİYİNƏ, HƏMRƏYLİYİNƏ MİSİLSİZ TÖHFƏLƏR VERMİŞDİR"

Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev "Bu unudulmaz gündə Azərbaycan xalqının dahi oğlu və əsl vətənpərvər şəxsiyyətin unudulmaz xatirəsini sonsuz qürur hissi ilə yad edərək, xüsusi vurğulamaq istərdim ki, Heydər Əliyev öz güclü iradəsi və nadir liderlik qabiliyyəti ilə müasir Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsinə və onun yeni dövlətçiliyinin təməlinin qoyulmasına, millətin birliyinə, həmrəyliyinə misilsiz töhfələr vermişdir" - deyə bildirmişdir. Özbəkistan ilə Azərbaycan arasında çoxşaxəli və uzunmüddətli münasibətlərin hərtərəfli inkişafı, dost və qardaş ölkələrimizin əlaqələrinin möhkəmləndirilməsi istiqamətində dahi şəxsiyyətin misilsiz xidmətlərin hər zaman yüksək ehtiram duyğuları ilə xatırlanır. "Bu əlamətdar yubiley münasibətilə Özbəkistanda Heydər Əliyevin mənalı həyat yoluna və örnək fəaliyyətinə həsr olunmuş çoxsaylı dəyirmi masalar, müxtəlif mədəni-maarif tədbirləri, elmi-bədii ədəbiyyatların nəşri özbək xalqının bu dahi şəxsiyyətə hədsiz ehtiramının parlaq ifadəsidir", - deyə qeyd edib. Onu da bildirib ki, Ulu Öndər Heydər Əliyev siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev ölkəsinin nüfuzunu beynəlxalq aləmdə böyük dərəcədə artıran və tarixi ədaləti bərpa edən mahir siyasi xadimi Özbəkistanın əsl dostu kimi tanıyırıq, həmçinin strateji tərəfdaşlığımızın yeni səviyyəyə yüksəlməsi üçün Sizin fəal səylərinizi tam dəstəkləyirik.



## "O, MƏNİM ÜÇÜN ƏSL MÜDRİK MÜƏLLİM VƏ GÖZƏL DOST OLUB"

M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin rektoru, akademik Viktor Sadovniçidən ünvanlanan təbrikdə belə yazılıb: "Siyasi müdrikliyi sayəsində hələ sağlığında canlı əfsanəyə çevrilən Heydər Əlirza oğlu Azərbaycanın siyasi və iqtisadi müstəqilliyinə nail olmaqla, öz xalqına demokratik və hüquqi dövlətdə yaşamaq imkanı hədiyyə etdi. O, öz xalqının xoşbəxt gələcəyi üçün bütün zəruri şəraiti yaradaraq, özündən sonra möhkəm təməl qoydu. Fəxr edirəm ki, Heydər Əliyev kimi görkəmli, zəhmətsevər şəxsiyyətlə çiyin-çiyinə işləmək və fəaliyyət göstərmək mənə nəsib olub. Mən onunla görüşlərimi xüsusi səmimiyyətlə və hörmətlə xatırlayıram, sevinirəm ki, o, mənim üçün əsl müdrik müəllim və gözəl dost olub. Heydər Əliyevin çoxsaylı dövlət mükafatları və təltifləri arasında Moskva Universitetinin Fəxri professoru - bizim universitetin ali mükafatının olması təhsil ocağımızda çalışan insanlar üçün xüsusi fəxrdir".

## "ONDAN SİYASİ MÜDRİKLİYİ, TƏMKİNLİLİYİ, ƏSL STRATEJİ DÜŞÜNMƏ QABİLİYYƏTİNİ MƏMNUNLUQLA ÖYRƏNMİŞƏM"

Əlbəttə ki, bu təbriklərin hər biri insanda qürur yaradır. Azərbaycan xalqının dahi oğlu, dünyaşöhrətli dövlət və siyasət xadimi Heydər Əlirza oğlu Əliyev respublikanı inkişaf və tərəqqiyə doğru apardı. "Mən Onun 25 il əvvəl söylədiyi sözləri xatırlayıram: "Azərbaycan mənim ürəyimdir. Azərbaycan mənim nəfəsimdir. Azərbaycan mənim həyatımdır". Əminəm ki, həyatının mənasını ölkəsinə xidmət etməkdə görən belə vətənpərvər şəxsiyyəti əbədi olaraq xatırlayacaqlar. Mənə nadir insan, böyük siyasi xadim, müasir Azərbaycan dövlətinin banisi hörmətli Heydər Əlirza oğlunu şəxsən tanımaq nəsib olub. Ondan siyasi müdrikliyi, təmkinliliyi, əsl strateji düşünmə qabiliyyətini məmnunluqla öyrənmişəm. Minsk ilə Bakı arasında bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlığın formalaşmasının əsasını qoyan Sizin atanızın xatirəsini Belarusda əziz tuturlar. Rəmzi haldır ki, Azərbaycanda "Heydər Əliyev İli" elan edilmiş 2023-cü ildə biz ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyini də layaqətlə qeyd edirik", - deyə Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko təbrikində bildirib. Bu fikirlər Azərbaycanın yaradıcısı və qurucusu olan Ulu Öndərin şəxsiyyətinə olan hörmətin, siyasi fəaliyyətinə olan qiymətin təzahürüdür.

## ULU ÖNDƏR XALQI AZADLIQ, SUVERENLİK VƏ FİRAVANLIQ YOLUNA ÇIXARTDI

Öz xalqına bağlı olan, Azərbaycanı böyük bir inkişaf yoluna çıxaran Ulu Öndər Heydər Əliyevin xalqı qarşısındakı xidmətləri yüksək qiymətləndirilir. Livan İslam Ruhani Zirvəsinin Baş katibi Məhəmməd Əl Sammakın Cənab Prezidentə ünvanladığı təbrikində Müasir Azərbaycan dövlətinin banisi, Heydər Əliyevin anadan olmasının 100-cü ildönümündə səmimi məhəbbət, hörmət və minnətdarlıq hissləri yer alıb: "Cənab Prezident, İslam mədəniyyətimizdə belə bir deyim var ki, elə insanlar var onların istədikləri Allahın istədiyidir. Bu, o deməkdir ki, insanlar üçün yaxşılıq iradəsi Allahın iradəsi ilə eynilәşir.









Xeyirxahlığın ən yüksək və ən nəcib ayələri yaxşı idarəçilikdə təcəssüm olunur. Yaxşı idarəçilik iki əsas prinsipə əsaslanır: birinci prinsip Allahın razılığı və məhəbbəti, ikinci prinsip isə insanların etibarı və sədaqətidir. Azərbaycan xalqına müdrik rəhbərliyi zamanı Allaha iman nuru ilə işıqlanan, xalq tərəfindən sevilən və onu sevən insanlardan biri də Prezident Heydər Əliyev olmuşdur, Allah onun ruhunu şad etsin. O, xalqı azadlıq, suverenlik və firavanlıq yoluna çıxardı”.

Azərbaycanın və ümumən Qafqaz regionunun çətin dövründə Prezident Heydər Əliyevin rəhbərliyinin asan olmadığını qeyd edən Məhəmməd Əl Sammak Onun Azərbaycan xalqını və dövlətini nicata, suverenliyə, müstəqilliyə, ardından isə firavanlığa, inkişafa doğru aparmasını müstəsna nailiyyət olduğunu qeyd edib: ”Fransanın keçmiş Prezidenti Jak Şirak siyasəti mümkün olmayanı mümkün etmək sənəti kimi təsvir edib. Bu mənada Prezident Heydər Əliyevin Azərbaycan dövlətinə rəhbərliyi zamanı əldə etdiyi uğurlar qeyri-mümkün olanı mümkünə çevirmək sənətinin nümunəsi idi. Bu gün eyni ruhla, eyni iradə ilə, eyni uğurla Siz atanızın yolunu davam etdirirsiniz. Prezident Heydər Əliyev bir sıra çətinliklərlə üzləşdi və bu çətinliklərin qolunu bir-birinin ardınca bükməyə müvəffəq oldu. Budur, bu gün Siz müdrik, özünə güvənən və xalqının bütün çətinliklərinin öhdəsindən gəlməyə qadir olduğuna inanan rəhbər olaraq yeni çağırışların qarşısında əzəmət və qürurla dayanırsınız. Bu işdə ilk növbədə Allahın rizasına və zəfərinə, eləcə də Azərbaycan xalqının sədaqəti və etibarına arxalanırsınız. Bu çağırışların haradan gəlməsi önəmli deyil. Önəmli olan odur ki, Allahın razılığı və xalqın etibarı üzərinizə yağır. Qeyri-mümkün olanı mümkün, hətta qaçılmaz edən ilahi rizanın və xalq etimadının birləşməsidir. Beləliklə, Prezident Heydər Əliyev taleyüklü çətinliklərin öhdəsindən gəlmək üçün qəbul etdiyi qərarların ölçüsünə görə böyük olduğu kimi, Siz də, cənab Prezident, hazırda dünyada baş verən dəyişikliklər kontekstində çağırışlarla mübarizə aparmaq üçün verdiyiniz qərarların ölçüsünə görə böyüksünüz. Üstəlik, Allaha inamınız və sədaqətli Azərbaycan xalqına güvəniniz Sizi bu sınaqların öhdəsindən gəlmək üçün möhkəm qala içində qoruyur və qələbənin Tanrıdan gəldiyindən əmin edir”.

Ulu Öndərin 100 illik yubileyi ilə bağlı Azərbaycan Prezidentinə ünvanlanan təbriklərin hər bir cümləsində Heydər Əliyev müdrikliyi, böyüklüyü görünür. Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirill, Gürcüstanın Baş naziri İrakli Qaribaşvili, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, İordaniyanın Dinlərarası Birgəyaşayış Araşdırmalar Mərkəzinin sədri Nəbil Həddad və başqalarının təbriklərində türk dünyasının böyük oğlu, adı ən nüfuzlu tarixi şəxsiyyətlərlə yanaşı çəkilən, həyatı və fəaliyyəti ilə nəsillərə örnək olan Ulu Öndər Heydər Əliyevin Azərbaycan üçün gördüyü işlər bir daha göz önünə çəkilir.

Ümummilli Lider Heydər Əliyev 1990-cı illərin əvvəllərində vətəndaş müharibəsi, parçalanmaq, müstəqilliyini itirmək təhlükəsi ilə qarşılaşan Azərbaycanı uzaqgörənliyi, müdrikliyi və siyasi liderliyi sayəsində qısa müddətdə sürətli inkişaf yoluna çıxardı. Bütün dünyada layiqli hörmət və böyük nüfuz qazanmış görkəmli dövlət xadiminin qoyduğu irs ilə hər azərbaycanlı fəxr edir Bu gün Azərbaycan Cənab İlham Əliyevin rəhbərliyi ilə Heydər Əliyevin müəyyənləşdirdiyi yolla irəliləyərək daha uğurlu gələcəyə doğru addımlayır. Azərbaycan İkinci Qarabağ müharibəsində tarixi Qələbə qazanaraq torpaqlarını işğaldan azad etdi. Ölkəmiz dövlət başçısının rəhbərliyi ilə bölgədə yeni reallıqlar yaradıb. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında güclü iqtisadiyyata, dinamik inkişafa, dünya dövlətləri sırasında xüsusi imicə malik olan ölkəmiz dünyanın ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən ölkəsi kimi müasir dünyanın çağırışlarına cavab olaraq yeni dövrünü yaşayır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər







“Heydər Əliyev İli” ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiqlənən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, Ümummilli Liderin xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

2023-cü il mayın 26-da YAP Ağstafa rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə Ağstafa şəhərində yerləşən Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə gül dəstələri qoyularaq əziz xatirəsi ehtiramla yad edilib.

Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, ümummilli lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib, gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar. Sonda partiya sıralarına yeni qəbul olunan bir qrup gəncə üzvlük vəsiqələri və fəal gənclərə fəxri fərmanlar təqdim olunub.

# Rəsul Quliyev yenidən Sergey Lavrova məktub yazıb, xahiş etdi



Kifayət qədər yaşları və başları olan müxalifətin dağıdıcı qanadının mənsubları hər fürsətdə ölkəmizin milli və dövlətçilik maraqlarına ziyan vurmağa cəhdlər göstərir. Nədi-nədi qarşılığında hansısa məkrli dairələrdən maliyyə yardımları alırlar. AXCP sədri Əli Kərimli vaxtaşırı Sevinc Osmanqızının TV-sinə çıxaraq Qarabağda antiterror əməliyyatlarının aparılmasına etiraz açıqlaması verir, tarixi ədalətsizliyin bərpa olunmasına qarşı çıxır. AXCP-nin funksionerlərindən olmuş Fəhmin Hacıyev xaricdə oturub, ordumuzun gözdən salınması üçün yaramaz vasitə və üsullardan istifadə edir. O gün isə Müsavatın keçmiş başqanı İsa Qəmbərin oğlu İlkin Qəmbər erməni diasporuna yarınmaq üçün bir daha "erməni soyqırımı"nın baş verməməsini arzu etdiyini bildirdi. ACP-nin lideri Rəsul Quliyev isə Azərbaycan xalqının mənliyinə və qüruruna toxuna cəfəng ifadələr səsləndirib.

### Qorxağın yekəsi elə Rəsul Quliyevin özüdür ki, var...

Bu məxluq Azərbaycan xalqını qorxaqlıqda, düşmənə qarşı mübarizədə zəiflik göstərməkdə qınayıb. Bir sıra bəzi ağılsız ifadələr də səsləndirib. Aydın məsələdir ki, bu məxluq millətimizə qarşı sərsəm ifadələr səsləndirərkən özündə olmayıb. Yəni sərsəm ifadələrdən ibarət olan açıqlamanı verərkən ya içkili olub, ya da psixoloji xəstəliyi daha qabarıq şəkildə özünü göstərib. Məlum faktdır ki, R.Quliyev başından ağır travma alıb, müalicə alsa da tam sağalmayıb. Hələ də ara-sıra psixoloji gərginlikdə olur və anormal hərəkətlərə yol verir, açıqlamalar verir, bəyanatlar səsləndirir. Hətta bir məqamda ABŞ-a yarınmaqdan imtina edərək Rusiyaya sığınmağa cəhd etmişdir. Bu məqsədlə Rusiyanın xarici işlər naziri Sergey Lavrova yalvarış dolu məktub da ünvanlamışdır. R.Quliyev məktubunda S.Lavrovdan Rusiya hakimiyyətinin onu himayəsinə götürməsini xahiş edib: "1993-1996-cı illərdə mən parlament sədri ikən Rusiya rəhbərliyi ilə görüşmüşəm və Federasiya Şurasının deputatları qarşısında çıxış etmişəm. 2003-cü ildə Moskvada olarkən bir sıra yüksək rütbəli şəxslərlə görüşlər keçirmişəm. Mən sizinlə görüşmək arzusundayam. Bu məsələləri sizinlə görüş zamanı müzakirə etməyə şad olardım".

### Rəsul Quliyev Rusiyanın ABŞ-dakı səfirindən nələri xahiş edib?

Məlumata görə, R.Quliyev məktubu yazdıqdan bir qədər sonra onu Rusiyanın ABŞ-dakı səfirliyinə dəvət ediblər. R.Quliyev Rusiyanın ABŞ-dakı səfiri Sergey Kislyakla 1 saat 45 dəqiqə söhbət edib, ona öz müraciətini və xahişlərini çatdırıb. Sonradan görüş və müzakirə edilən məsələlər barədə "Amerikanın səsi" və "Azadlıq" radiosu geniş və ətraflı məlumat yaymışdır. Bütün bu olaylar onu göstərir ki, R.Quliyev ABŞ-ın ondan bir alət kimi istifadə etsə də, istək və arzularının qismində olsa həyata keçməsinə yardımçı olmadığını anladığından, yönünü və mövqeyini Rusiyaya çevirməyə çalışır. Yəni, bu dəfə Rusiyanın maşası rolunda çıxış etməyi arzu edir. Lakin inandırıcı deyil ki, dəfələrlə istifadə olunaraq lazımsız əşya kimi zibilliyə atılan R.Quliyevə Rusiya sahib çıxsın. Digər tərəfdən, Rusiyanın qaranlıq dairələri R.Quliyevin elə bir imkanı və gücü olmadığını anladığından onu agentləri sırasına qataraq əlavə pul xərcləməz.

### Rəsul Quliyev Azərbaycana deportasiya oluna bilər

Ancaq R.Quliyevin istəyindən əl çəkmədiyi müşahidə olunur. O mənada ki, R. Quliyev yenidən kömək üçün Rusiyanın xarici işlər naziri S.Lavrova xahişlə müraciət edib. Proqnozlaşdırmaq olar ki, əgər R.Quliyev davamlı şəkildə Rusiyaya yarınmaq üçün məktublar yazmaqda davam edərsə, o zaman ABŞ onu ölkədən çıxaracaq. Onsuz da R.Quliyev səhvlər buraxdığı üçün ABŞ-ın müəyyən dairələrində özünə qəzəb və nifrət hissi oyadıb. Lavrova davamlı məktubların yazılması isə nəhayətdə ABŞ-ı qəzəbləndirəcək və o, ölkədən deportasiya olunacaq. Təbii ki, bu halda onu həbsxana gözləyir. Çünki R.Quliyev haqqında Azərbaycan hüquq-mühafizə orqanları tərəfindən cinayət işi qaldırılıb. Azərbaycana deportasiyası isə onun aeroportdan yolunun həbsxanaya düşəcəyini deməyə əsas verir. Qarağürüh dəstə R.Quliyevi müdafiə xarakterli tədbirlər də keçirməyəcək. Çünki eks-spiker küçə düşüncəli məxluqatlar, eləcə də müxaliflər arasında, o cümlədən Əli Kərimli, Cəmil Həsənli, Arif Hacılı və digərləri tərəfindən qəbul edilmir. Müxtəlif vaxtlarda müxalifət partiyalarını və onların sədrlərini açıq şəkildə tənqid və təhqir etməsi R.Quliyevlə əqidə "dostları" arasında bütün körpüləri yandırıb. Yəni, özü-özünü iflasa məhkum edib. Hazırda R.Quliyev quleybanı kimi tənhadır, hər mənada. Bu baxımdan, onu fəlakətli sonluq gözləyir.

***İ.ƏLİYEV***

# "Azərbaycan erməni silahlılarını ərazisindən təmizləməsinə başlamalıdır"





"İlk dəfə deyil ki, Xankəndi ətrafında erməni terrorçuları rus kontingentin gözü qarşısında hərbi təlimlər keçir. Yəni əvvəllər də belə hallarla rastlaşmışıq və indi də rastlaşırıq". Bunu hərbi ekspert Ədalət Verdiyev "Səs" qəzetinə açıqlamasında deyib.

Onun sözlərinə görə, bu kimi halların qarşısının alınması artıq ciddi bir zərurətə çevrilib: "Qarabağa daxil olduqları gündən indiyə qədər rus kontingent burada erməni silahlı birləşmələrin və erməni terrorçularının mövcudluğuna zəmanət verən tək qüvvə olaraq indi də qalmaqdadır. Başqa sözlə desək, rus kontingent ərazisində olmasaydı, orada indi erməni silahlı da yox idi və yaxud da rus kontingent oradan çıxarıldığı gün erməni silahlıları da silahı yerə qoyub Azərbaycana təslim olacaqlar. Görünən odur ki, nə erməni silahlılarını ruslar oradan təmizləmək istəmir, nə də Ermənistan hakimiyyəti həmin özünə aid olan qüvvələri həmin ərazidən çıxarmaq niyyətində deyil. Ermənistanın siyasi liderləri Qarabağ Azərbaycandır və bizim ərazilərimizin 86,6 min kvadrat kilometr olduğunu desə də, hələ də özünə aid silahlıları Qarabağda saxlamaqla bu bəyanatlarının qeyri-səmimi olduğunu da ortaya qoyur. Belə olan halda Azərbaycan tərəfi rus kontingentinə erməni silahlılarını ərazisindən çıxarmaq üçün çox da uzun olmayan bir neçə həftəlik zaman verməlidir və bu zaman çərçivəsində rus kontingent bizə təqdim etdiyi qrafik əsasında ərazilərimizi erməni silahlılarından təmizləməlidir. Əgər bu hal baş verməyəcək, o zaman Azərbaycan öz imkan və potensialı hesabına erməni silahlılarının ərazisindən təmizləməsinə başlamalıdır. Sərhəd keçid məntəqəmizi Laçın ərazisində yerləşdirildikdən sonra sərhədlərimiz tam bərpa olunandan sonra belə bir fəaliyyətlərin həyata keçirilməsi gözlənilən idi və bu, ən yaxın mümkün zamanda həyata keçiriləcək. Buna kimsənin şübhəsi olmamalıdır".

***GÜLYANƏ***



**Elçin Bayramlı**

# Odey, taksi...

**Son illər ölkədə taksi fəaliyyəti ilə bağlı yaranmış problemlərin həm sürücüləri, həm də sərnişinləri narahat etməsi barədə mediada və sosial şəbəkələrdə narazılıq hallarına çox rast gəlinir. Taksi sürücüləri aqreqatorlardan və ağır iş şəraitindən, sərnişinlər kobud sürücülərdən, vətəndaşlar taksilərin paytaxt küçələrində yaratdığı uzun tıxaclardan, yaranmış xaosdan şikayətlənir. Vəziyyətdən çıxış yolu kimi müxtəlif təkliflər səslənsə də, hələ ki, tendensiya dəyişməz olaraq qalır.**

Taksi sahəsində son illərdə çox dəyişiklik olub. İlk növbədə taksi maşınları daha qənaətcil və komfortlu olub, onların çoxu hibrid maşınlardır və yanacaq xərci azdır ki, bu da öz növbəsində qiymətlərin aşağı düşməsinə imkan yaradıb. Bundan başqa, bu sahədə rəqabət güclü olduğundan və bazarda onlarla şirkət fəaliyyət göstərdiyindən müştərilər üçün həm çox sərfəli qiymətlər və keyfiyyətli xidmət formalaşıb.

Mobil tətbiqlərin vasitəsilə taksi sifariş etmək mümkün olduğundan müştərilərə cəmi 1-2 dəqiqə ərzində taksi maşını tapmaq asan olur. Qiymətlər o dərəcədə ucuzlaşıb ki, hətta 3-4 nəfərin yaxın bir yerə avtobusla getməsindən taksi ilə getmələri daha sərfəli olur. Bəzən qısa məsafələrdə 50 qəpik-1 manat arası qiymətlər olur ki, bu da müştərilər üçün həddən artıq sərfəlidir.

Lakin bu proses özü ilə problemlər də gətirib. Bu da taksi sürücülərinin günü əksər hissəsini işləməsi, yəni istismara məruz qalması və bir çox qeyri-peşəkar və qeyri-mədəni sürücülər tərəfindən sərnişinlərə qarşı qeyri-etik davranış, yolda qəza şəraitinin yaradılması və s kimi məsələlərlə bağlıdır. Bu sahədə işə düzəlmək asan olduğundasn və fiziki işlərə nisbətən xeyli asan və xeyli çox pul qazanmaq mümkün olduğundan, normal sürücülük təcrübəsi olmayan, normal psixologiyaya malik olmayan şəxslər də burada özlərinə yer tutub ki, bu da sərnişinlər arasında narazılıq yaradıb.

Bir çox iş tapa bilməyən şəxslər kreditlə bir maşın alır, ya da şirkətlərdən gündəlik icarəyə götürür və başlayır işləməyə. Halbuki, onların bir çoxunun psixoloji, fiziki sağlamlığı qaydasında deyil, sürücülük təcrübəsi demək olar ki yoxdur. Əmək bazırındakı mövcud vəziyyət şirkətlərin sürücülərin istismara məruz qoymasını stimullaşdırır.Sürücülərin qarşısına ağır plan qoyulur, və ya çox aşağı faiz verilir ki, sürücü də bu xərcləri çıxarmaq üçün sutkada 15 saat işləməyə məcbur olur. Psixi və fiziki gərginli nəticəsində onlar stressli olur, sərnişinlərlə kobud davranır və qəzalara səbəb olurlar.

Düzdür, bu sahədə gəlir elə də az deyil. Sürücü ən pis halda gündəlik 50 manat qazanır. Bəziləri isə 100 manatdan artıq qazanc əldə edir. Lakin bu çox ağır fiziki və psixoloji gərginlik sayəsində mümkün olur. Belə sürücüdən sərnişin nə tələb edə bilər?

Şirkət maşınları istisna olmaqla, şəxsi maşınların təmir, yanacaq və sair xərcləri də sürücülərin boynuna olur. Bu halda onun avtomobili fasiləsiz istismar səbəbindən 2-3 ilə köhnəlir, amortizasiya xərcləri artır və dəyərini xeyli itirir. Son nəticədə əldə edilən gəlirin böyük hissəsi sonrakı dövrdə itirilmiş olur.

Əlbəttə, taksi seqmentində yaranmış rəqabətli mühit yaxşıdır, bunun qarşısını almaq düzgün olmazdı. Lakin hökumətin burada bəzi tənzimləyici funksiyaları vacibdir. Məsələn, şirkətlər üçün tələblər müəyyənləşdirilməlidir- həm maşınlar, həm də sürücülərlə bağlı. Maşınlar normal texniki tələblərə cavab verməlidir. Sürücülər isə azı 5 il sürücülük təcrübəsi olmalı, psixi cəhətdən sağlam olmalı, vaxtilə ağır cinayət törətmiş olmamalıdır. Digər tələblər isə, sürücülərin 8 saatdan artıq işlədilməsinə qadağa qoyulmalı, onların ən azı həftədə 1 gün istirahət imkanı təmin edilməlidir.

Bu kimi təzmimləmələr xidmətin keyfiyyətini daha da artırar, sürücülərin istismarının qarşısı alınar, sərnişinlərin isə şikayətləri aradan qalxar. Hər bir halda indiki rəqabət mühiti saxlanmalı, sürücü və sərnişinlərin hüquqları təmin olunmalıdır.

# Son zəng:
## XATİRƏ, YOXSA İSRAFÇILIQ?

***Son zəng Azərbaycanın ümumtəhsil məktəblərində hər il iyunun 14-də qeyd edilən bayram və məktəbdə dərs ilinin qurtardığı gündür. Son zəng SSRİ dövründə və dövlət müstəqilliyinin bərpasından sonra 2005-ci ilə qədər mayın 25-i, 2005-ci ildən 2016-cı ilə qədər isə mayın 31-də qeyd olunmuşdur.***

Əvvəlki zamanla müqayisədə müasir gənclər Son zəngə xüsusi ataşfəşanlıqla hazırlıq görürlər. Belə ki, fərqli rəqslər öyrənilir, xüsusi geyimlər tikilir, hər sinif özünə uyğun mahnı yazdırır və oxuyur, məzun lentaları hazırlatdırılır və daha nələr nələr... Bəziləri bütün bunları artıq xərc olaraq görsə də, kifayət qədər həvəs edib hazırlaşanlar da az deyil.

Bütün bu hazırlıqlardan sonra isə bahalı





restoralarda hər sinif öz məzun gününü qeyd edir. Ora da xüsusi məclis geyimləri, ayaqqabı, qızlar üçün saç, makiyaj, dırnaq və s. kimi xərclər çıxır.

Bəs, bütün bunlar artıq məsrəfdirmi? Əvvəlki Son zəng ilə indikilər arasında hansı fərqlər var?

SİA mövzu ilə bağlı araşdırma aparıb.

**Təhsil məsələləri üzrə ekspert Elçin Əfəndi:** "Son zəng keçirilməsinin spesifik





xüsusiyyəti var. Yəni, hər kəs istəyir ki, təkrarı olmayacaq bu anı yaddaqalan etsin. Buna görə də həmin günü hərə fərqli formatda keçirir. Kemişdəki Son zəng ilə bu günü müqayisə etsək, bir çox fərqlər var. Bu fərqlərdən başlıcası müasir dövrün gəncləridir. Onlar məzun gününü daha təmtəraqla qeyd etməyə üstünlük verirlər.

Burada diqqətə alınacaq məqam ondan ibarətdir ki, şagirdlər təhlükəsizlik qaydalarına, sağlamlıqlarına və qidalarına maksimum riayət etsinlər. Bu amillər mütləq nəzərə alınmalıdır. Əlbəttə, böyük ataşfəşanlıq etmək kimi hallar, məncə, doğru deyil. Bunu başqa ideal üsullarla da əvəz etmək olar. Əvvəllər Son zəng məktəb daxilində qeyd olunurdu. Burada müəllimlər, şagirdlər və birincilər öz ürək sözlərini deyirdilər.

Bütün məzunlara uğurlar arzu edirik. Onlar artıq yeni həyata atılırlar. Onların təhlükəsizlik qaydalarına maksimum riayət etmələrini istəyirəm. Çünki bura qədər bir çox xoşagəlməz hallarla qarşılaşmışıq".



**Fəlsəfə üzrə fəlsəfə doktoru, sosioloq Mail Yaqub:** "Ümumiyyətlə, təkcə Son zəngə bağlı deyil, bütün digər mərasimlərdə də get-gedə təmtəraq çoxalır. Bu, təəssüfedici bir haldır. İsraf artır. Təbii ki, bu, bəzi ailələrin rifah səviyyəsinin artması ilə də əlaqədardır. Yəni, yüksək maddi təminatı olan ailələr təmtəraqlı mərasimlərin keçirilməsində qabağa düşür, öncül olurlar. Bu təmtəraq tədricən dəb halını alır. Digər insanlar da bu dəbə uyğun rəftar etməli olurlar. Onlar çalışır ki, dəbə ayaq uydursunlar və borc-xərcə girmək bahasına bunları edirlər.

İsrafçılıq baş alıb gedir. Son zəng də buna aiddir. Təbii ki, məzun gününü qeyd etmək çox yaxşıdır və xatirə qalacaq bir gündür. Amma bu, israfla olmamalıdır. Ümumiyyətlə, cəmiyyətimiz və insanlarımız öyrənməlidir ki, israfa yol verməmək olmaz. Hətta maddi imkan yaxşı olsa belə, israf bütün hallarda yaxşı bir şey deyil".

11-ci sinif şagirdi Taleh Dəmirçiyev: "Hamı kimi biz də 14 iyun Son zəngə hazırlıq



görürük. İllər çox tez keçir. Heç inanmazdım ki, artıq məzun olacağım günə belə az vaxt qalıb.

Məlum gün üçün fikrimizdə 3 növ rəqs etməyi nəzərdə tutmuşuq. Onlardan biri milli, ikincisi gürcü, digəri isə valsdır. İkisini konkret seçmişik, qalıb gürcü rəqsi. Həmçinin, Məzun günü üçün kətan şalvar, ağ köynək və ağ ayaqqabı da almışıq. Düzdür, abituriyent hazırlıqları ilə birlikdə bunları etmək çox çətindir. Amma insan dünyaya bir dəfə gəlir və bu günü də bir dəfə yaşayır. Ona görə hər şey ürəyimizcə olmalıdır.

Sinifin bütün uşaqları Son zəng tədbirində iştirak edəcək. Amma təbii ki, rəqsə gəlməyən istisna şagirdlər də var".

***Ayşən Vəli***





# Toyun bahalısı yaxşıdır, yoxsa ucuzu?

## Bahalı toy boşanmalara səbəb olur, sərfəli toy ailənin uzunömürlülüyünə xidmət edir

**ABŞ alimləri və tədqiqat institutlarının birgə araşdırması nəticəsində məlum olub ki, yüksək büdcəli toy edən cütlüklərin boşanma ehtimalı aşağı büdcəli toy edənlərə nisbətən daha çoxdur. Tədqiqatçılar toyuna 25.000 dollardan çox xərc çəkən hər 10 cütlükdən 1-nin 3 il ərzində boşandığını açıqlayıb.**

Böyük Britaniyanın Evlilik Fondunun direktoru Harri Benson araşdırmanı belə şərh edib: "Bu məlumatlar bizə göstərir ki, ABŞ-da bahalı toylar evlilik üçün pis başlanğıcdır və təbii olaraq yeni ailəyə borc yaradır. Bu araşdırma göstərir ki, ümumiyyətlə, toyların bahalı olması bizim həyatımız üçün heç bir məna kəsb etmir,



mənfi təsirlərindən başqa. Evliliyə hazırlaşan gənclər bu özəl günü öz ailələri və dostları ilə qeyd etmək üçün sadə bir məclislə evlənsələr, daha az pul xərcləsələr gələcək problemləri də az olar".

Maraqlıdır, bahalı toylar boşanmalara səbəb olurmu? Bəs maddi vəziyyəti çox yaxşı olanların nikahlarına bu vəziyyət necə təsir edir? Evlilikdən əvvəl və sonra yarana biləcək maddi çətinliklərin qarşısını almaq üçün cütlüklər nələrə diqqət etməlidirlər?

### Evliliyi səyahət kimi düşünün

Zənnimcə, evlilik insan üçün bir səyahətdir, səfərdir. Bu səyahətin maraqlı və uzun olması, habelə tərəflərin heç biri üçün cansıxıcı olmaması səyahətə çıxan cütlükdən asılıdır. Necə ki, biz səfərə çıxanda bütün planlarımızı, arzularımızı, səfərdən umduqlarımızı öz səyahət çantamızı yığarkən planlaşdırırıq, bəzilərimiz, hətta səyahət gündəliyi tutur, ediləcək hər şeyi addım-addım yazır - harada dincələcəyik, nə qədər büdcəmiz var, xərclərimizi necə planlaşdıracağıq, hamısını əvvəldən hesablayırıq, eləcə də evlənəndə belə etməliyik.

Evlənmədən öncə, nişanlananda, toya hazırlaşanda da bu planlar uzun-uzadı ölçülüb-biçilməlidir məncə. Evləndikdən sonra borc batağında üzməmək, daha rahat həyat keçirmək, ömür-gün yoldaşımızla düşüncələrimizin üst-üstə düşməsi kimi vacib detallar öncədən düşünülməlidir.

Birlikdə yaşamağa, həyatı paylaşmağa və toya hazırlıq gənclərin ən şirin həyəcanıdır, bu dövrü malmülk, bahalı restoran, daha bahalı zinət əşyaları, daha bahalı ev əşyaları haqqında dava-dalaşla keçirən tərəflərin ömür yolu da uzun olmur. Sağlam ünsiyyət və müzakirə mədəniyyəti ən vacib xırdalıqdır bu anlarda, əgər tərəflər bu ünsiyyəti qura bilmirlərsə, müzakirə mədəniyyətləri yoxdursa və dünya malı üçün bir-birindən incik düşürsə, bu evlilik başlamadan bitsə daha məqbuldur.



### "Bahalı toy prestijdir"

Toya hazırlıq prosesinin ən cansıxıcı mərhələsi də şadlıq evləri və menyu qiymətləridir. Dünyanın bütün naz-nemətlərinin düzüldüyü toy süfrəsində qaşqabaqlı oturmuş bəy-gəlin varsa, o toy işgəncədir, zülümdür. Toydan öncəki mübahisələr və fikir ayrılıqları onların evliliklərinə böyük hədədir, fərqində deyillər. Var gücləri ilə dəbdəbəli mərasim təşkil edən tərəflər bahalı toyun prestij, vizit kart olduğu qənaətindədir. Dəbdəbəli toy, alınan borclar, çəkilən xərclər evlilik ərəfəsində tərəflərin beynini o qədər məşğul edir ki, fərqində olmadan depressiv vəziyyətə düşürlər, stresslə yol yoldaşı olurlar.

Ailə büdcəsini evlilikdən öncə formalaşdıran, bütün proses boyunca ağıllı pul xərcləyən, gərəksiz xırdalıqlara fikir verməyən, bir-birinin fikrinə hörmət edən, bahalı və lazımsız prosedurlardan imtina edən gənclərin ailə həyatı da anlayışlı keçir.

Əgər tərəflər maddi cəhətdən yaxşı vəziyyətdədirlərsə, adətən, xərclərin miqdarı ilə bağlı gərginlik olmur. Lakin bu halda da mübahisə ediləsi nəsə tapmaq olur. Bir tərəf evin qiymətinin yüksəkliyindən, digər tərəf isə bahalı cehizin vacibliyindən bəhs edir. Ümumi mənzərəni gördükdə insan, bu gənclərin bir-biri ilə evlənmə səbəblərinin bahalı ev və bir sərvət dəyərində cehiz olduğu qənaətinə gəlir. Danışılan mövzu ancaq maddi məsələlərdir, kim nə alacaq, kim nəyi haradan sifariş edəcək, qızılın qramı nə qədər olacaq, gəlinlik üçün nə qədər pul ödənəcək, gəlin hansı salonda bəzənəcək, bəy üçün boğçaya nələr qoyulacaq, gəlin xonçasında nə əskikdir və s. Müzakirə edilən mövzuların çeşidi arasında mənəvi məsələlər iynə ulduzu böyüklüyündə qalır, ya müzakirə edilmir, ya da səthi keçilir.

### Qonaq hesabına toy etmək

Düşüncələr də fərqlidir. Bəzi gənclər üçün toyda möhtəşəm təşkilatçılıq olmalıdır, hər şeyin ən gözəli, ən əlası, ən bahalısı istifadə edilməlidir, minlərlə manat müqabilində məşhur müğənnilər gətirilməlidir, yeyilməyəcək qədər yemək çeşidi düzülməlidir, bəy-gəlin salona qəribə təqdimatla girməlidir, toy plovu məşhur rəqqasların təqdimatında gəlməlidir, tortun hündürlüyü 2 metr olmalıdır və s. Sadaladıqca özüm yoruldum. Bütün bunların fonunda toyun sonu salınan pullar çəkilən xərcləri ödəyəcəkmi deyə qara-qara düşünən bəy və 800 manat ödəyib bəzəndiyi salondan məmnun qalmayan narazı gəlin varsa, bu toyun nə mənası var ki?

Bəziləri üçün isə sadə bir toy mərasimi kifayətdir. Yeganə tələb hər şeyin büdcə daxilində baş tutmasıdır - kişik bir toy zalı kirayələnibsə, qonaqlar üçün oturmağa normal şərait varsa, bir neçə çeşid yemək düzülübsə, məlahətli səsi olan tanınmamış bir müğənni oxuyursa, borc yoxdursa, toydan yığılan nəmər borclara getməyəcəksə, gəlinin üzündən xoşbəxtlik, bəyin üzündən məmnunluq yağırsa, sizcə, hər şey belə daha gözəl deyilmi?

Ailə adlı səfərə çıxanda bütün bunları nəzərə alın əziz gənclər. O səfərdən əliboş, narazı, yarımçıq qayıtmayın. Əksinə, daha uzun bir yol qət etmək, daha yaxşı yol yoldaşı olmaq, daha anlayışlı bir həyat yaşamaq üçün əvvəlcədən bəzi gərəksiz prosedurları, adətləri, tələbləri özünüzdən uzaqlaşdırın. Maddi çıxarlar üzərində qurulan ailənizin ömrü uzun olmaz. Menyusu 150-200 manat olan toy evləri yerinə sadə bir mərasim təşkil edin, qonaqların yazılacağı nəmər hesabına toy planlaşdıracağınız əvəzinə öz büdcənizə uyğun toy təşkil edin, 4-5 cür isti yemək, 10 cür içki, 30 cür qəlyanaltı olacaq toy süfrəsinə çəkəcəyiniz xərci həyatınıza yatırım edin, dünyanı gəzin, özünüzü inkişaf etdirin. Sizin toyunuzda 50 cür naz-nemət olması, kimin oxuması, hansısa bahalı nümayişlərin təşkili 3 gün sonra unudulacaq, amma borclar ailə həyatınız boyu xoşbəxtliyinizə kölgə salacaq.

***Lalə Mehralı***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# “Qadın sürücüləri yolda sıxışdırırlar”

Bu müsahibəni bir neçə gündür almışdım, vaxt darlığından audionu yazıya çevirə bilmirdim. Bu səhər işə gələndə motosikletli bir xanımın Azneft dairəsində yaşadığı çətinliyi görəndən sonra redaksiyaya gəlib dərhal müsahibəni çapa hazırladım. Dairədəki tıxacda qalan qadın motosikletçi hər tərəfdən mühasirəyə alınmışdı. Siqnallayan kim, öz avtomobilindən söz atan kim. Kişilər qadını açıq-aşkar narahat edirdilər, qadın vəziyyətdən çıxmaq üçün sağ zolağa keçməyə çalışırdı, kişi sürücülər imkan vermirdilər. Polisin yolu nizamlamasından sonra motosikletçi qadın tıxacdan çıxa və maşınların arasından şütüyüb keçə bildi.



Qadın sürücülər kiminə görə yolların qənimi, qəzaların səbəbkarı, kiminə görə isə kişilərdən daha ehtiyatlı və peşəkardır. Amma mütəxəssislər deyir ki, sürücülük dərsi alan qadın sürücülər əkscinslə müqayisədə daha diqqətlidirlər, daha az qəza törədirlər. Təcrübə, müşahidə, həmçinin statistika da göstərir ki, qadın sürücülər kişilərə nisbətən daha az qayda pozuntusu edirlər.

Qadın sürücülər sürət həddini keçmirlər, araşdırmalar həm də onu deyir ki, qadınların törətdiyi qəzaların 82 %-i əkscinsin nümayəndələrinin xanım sürücüləri yolda “sıxışdırmaları” səbəbindən baş verir. Belə ki, yollarda qadın sürücü görən kişi sürücülər – daha çox gənc nəslin nümayəndələri – qadının avtomobilini sıxışdırır, arxadan və öndən süni tıxac yaradır, idarəetməsinə manеə törədirlər.

Amma statistik rəqəmlər göstərir ki, qadın sürücülər kişilərə nisbətən daha çox siqnal verir. Qadınların səbəb olduğu qəzalarda daha çox yaşı 45 yaşdan yuxarı olan xanım sürücülər günahkar olur. Maraqlı bir fakt da var ki, bir çox kişi sürücüdən fərqli olaraq qadın sürücülər qəza törədəndə qaçmırlar, zərər verdikləri, yaraladıqları piyadaya kömək edirlər. Təhlükəsizlik kəmərini daha çox qadın sürücülər istifadə edir.

Bu gün ölkəmizdə də kifayət qədər çox qadın sürücü var, Dövlət Statistika Komitəsinin verdiyi məlumatlara görə, sürücülük vəsiqəsi alanların ümumi sayında qadınların xüsusi çəkisi 2008-ci ildə 4,6 faiz olduğu halda, 2022-ci ildə 11,8 faizədək artıb.

Qadınların əksəriyyəti üçün işdən, ailədən, uşaqlardan artan boş zamanında dərs oxuyaraq, test həll edərək sürücülük vəsiqəsi ala bilmək üçün var gücü ilə çalışır. Şəxsi müşahidələrimə əsasən də deyə bilərəm ki, sürücülük imtahanlarına girən qadınların sayı günügündən artır. Vəsiqə ala bilmək üçün 4 ay əziyyət çəkdiyini deyən həmsöhbətim Lamiyə Şahgəldiyeva da onlardan biridir.

***-Neçə ildir avtomobil idarə edirsiniz?***

-18 yaşımdan. Atam təlim müəllimidir deyə çox rahatlıqla öyrənmişəm. İndi 25 yaşım var, 6 ildən çoxdur ki, sürücülük vəsiqəsi almışam və sərbəst idarə edirəm.

***-Sürücülük vəsiqəsini neçənci imtahanla aldınız?***

-3-cü nəzəri imtahandan keçdim. Birinci dəfə imtahanda həyəcanım çox oldu, kəsildim. İkincidə tələskənlik etdim, bildiyim suallar idi, amma yaxşı düşünmədən seçdim variantı. Amma 3-cü imtahanda 7-ci dəqiqədə yaşıl ekranı yandırdım.

***-Bəs praktiki imtahan?***

-Nəzəri imtahandan keçdiyim gün keçə bilmədim praktiki imtahandan, çünki sevincdən əlim-ayağım tutmurdu. Əslində, mən təlimlə yaxşı öyrənmişdim sürücülüyü, sadəcə, dediyim kimi, sevincli idim deyə diqqətsizlik etdim, dönmə işıqlarını qoşmadan çıxdım yola, inspektor irad tutdu haqlı olaraq. Amma 2 həftə sonra təkrar imtahan verdim və keçdim. Cəmi yarım saata vəsiqəmi aldım.

***-Nə qədər rüsum ödədiniz ümumilikdə?***

-3 nəzəri, 2 praktiki imtahanda olmuşam. Mən imtahan verən il rüsumlar indikindən az idi, ilk imtahan 20, sonrakılar 10 manat idi. İndi müvafiq olaraq 40 və 20 manat olub. Praktiki imtahanın ilki ödənişsiz olur, çünki eyni gün nəzəri üçün rüsum ödəyirik. Ümumilikdə 50 manat rüsum ödədim imtahanlara. Vəsiqənin rüsumu isə 30 manatdır. Cəmi 80 manat.

***-Paytaxt yollarından hamı şikayətlənir, deyirlər çətindir avtomobil idarə etmək. Sizcə də belədir?***

-Əslində, Bakıda maşın sürmək çətindir. Həm yollarda bashabas olur, həm mane olan çoxdur, həm də qaydalara əməl etməyənlər. Mən həmişə qaydalara əməl edərək sürürəm, amma qarşı tərəf əməl etməyəndə qəzalı vəziyyət olur. Tutaq ki, mən arxayınam ki, yol mənimdir, amma biri ikinci dərəcəli yoldan çıxıb qəfil önümə keçir, yol verməyəndə qəza vəziyyəti olur, yol verəndə isə qayda pozuntusu. Əgər hamı qaydalarla sürsə, heç vaxt qəza olmaz. Kişilər çox kobuddur yolda, yol verən çox azdır. Mən demirəm ki, qadınam deyə yol verməlidirlər, sadəcə, mən yolda üstün mövqedə olanda mane olmasınlar.

***- Bəs deyirlər kişi sürücülər yollarda qadın sürücülərə hörmət edir?***

-Yox, kim deyirsə yalan deyir. Çox azdır hörmət edən. Çoxu nəinki hörmət etmək, əksinə, mane olur. Elə vaxt olur sağımdan da, solumdan da sıxışdırırlar, siqnal verirlər, fit çalırlar, musiqinin səsini yüksəldirlər, hamısı da diqqətini dağıdır adamın, indi sən gəl belə vəziyyətdə qəza eləmə. Yolda pəncərənin şüşəsini aşağı etmirəm buna görə. Mənim yoldaşım da maşın idarə edir, yanında olanda dəfələrlə görmüşəm, qadın sürücülərə çox hörmət edir, sıxışdıran olanda imkan vermir. Deyir ki, mən onları yolda görəndə səni düşünürəm, fikirləşirəm ki, o maşındakı sən də ola bilərsən. Amma bütün kişilər belə deyil, qadın sürücünü qəza vəziyyətinə salan kişi sürücülər çoxdur.

***-Heç olmayıb ki, kişi sürücülərdən kömək istəyəsiniz?***

-Olub əlbəttə. Yaşlı taksi sürücüləri park zamanı çox kömək edib mənə. Bilirsiniz ki, Bakıda park etmək çətindir, hər yerə girmək olmur, tapdığın boş yerə də gərək maşını elə qoyasan ki, mane olmayasan heç kimə. Yeni sürəndə bəzən çətinlik çəkdiyimi görəndə taksi sürücüləri kömək edirdilər, daha yaxşı park edirdim.

***- Nə vaxtsa yol polisi sizi qayda pozuntusuna görə saxlayıb?***

-6 ildə cəmi 3 dəfə polis saxlayıb məni, 1-ci dəfə çox təəccübləndim ki, axı qayda pozmadım, niyə saxladı. Yaxınlaşdı, özünü təqdim etdi və mənə gül verdi. Onda xatırladım ki, axı bu gün 8 Martdır. Çox xoş oldu yol polisinin bu jesti. Qaydalara maksimum diqqət edirəm, çünki atam mənə yaxşı təlim keçib. Bütün yol hərəkəti qaydalarını əzbər bilirəm, Əziz Talıbovun kitabı daimi yanımdadır, bəzən nəyisə unudanda tez baxıram. Heç vaxt telefona sükan arxasında olanda cavab vermirəm, qətiyyən kəməri bağlamadan yola çıxmıram. Atam həmişə deyir ki, sükan arxasında telefonla danışmaq qəza üçün şərait yaratmağın birinci addımıdır. Mən iki yaxın qohumumu avtomobil qəzasında itirmişəm, ikisi də səhlənkarlığın qurbanı olub, biri sükan arxasında telefonla danışanda, digəri də təhlükəsizlik kəmərini taxmadığı üçün həlak olub. Ona görə bütün qaydalara əməl etməyə çalışıram və bu günə kimi qayda pozuntusu eləməmişəm.

***-Bəs digər 2 hal? Qayda pozmadan niyə saxlamışdı polis?***

- Hamiləlikdə təhlükəsizlik kəmərini taxa bilmirdim, qarnımı sıxırdı, 8 ayımadək tək idarə edirdim maşını. Yol hərəkəti haqqında qanunlara görə hamilə qadın kəməri taxmaya bilər. Keçən il evdən çıxıb yaxınlıqdakı marketə gedənədək bağlamadım kəməri, yol polisi gördü, dayandırdı, irad tutdu, amma qarnımı görəndə gülümsəyib buraxdı. O gündən sonra sürmədim, bir də qızım dünyaya gələndən sonra sürdüm. Bir dəfə də neçə il əvvəl idi, ağ köynək geyinmişdim, kəməri bağladım, yolda dayandırdı polis, sən demə, elə köynəklər çıxıbmış ki, üstündə qara zolaq var, sürücü kəməri bağlamasa da, elə görünür ki, kəmər bağlıdır. Polis də elə bilib o köynəkdən geyinmişəm. Gördü ki, kəməri həqiqətən bağlamışam, buraxdı.

***-Qaydaları yaxşı bilirsinizsə, qəza da törətməmisiniz deməli...***

-Yox, şükürlər olsun ki, olmayıb elə hal. Bir şeyi deyim ki, bəzən qaydaları yaxşı bilməyimiz də qəzadan sığortalamır bizi. Çünki qayda bilməyən sürücülər də çoxdur yollarda. Bəzən etinasızlıqdan, bəzən bilməməzlikdən olur qəzalar. Məsələn, bir dəfə qabaqdakı maşın arxaarxaya gələrək maşınımı yüngül zədələdi. Tıxacda idik, məndən öncəki avtomobilin sürətlər qutusu mexaniki idi, tıxac da yoxuş yerdə idi, sürücü diqqətsiz olub, bir də gördüm maşın arxaya doğru gəlir, mənim arxamda da maşınlar var idi, geri çəkməyə yer yoxdur, ona görə maşınımın qabaq hissəsi zədələndi. Belə hallarda ara məsafəsi vacibdir, mən qabaqdakı maşınla aramdakı məsafəni qoruyuram, amma bir də görürsən bir “ağıllı” çıxır, gəlib ora girir. Maşınımı zədələyən də elə sürücülərdən biri idi.

***-Qadın sürücülərə nə məsləhət görürsünüz, yolda rahat gedə bilmək üçün neyləmək lazımdır?***

-Əgər Bakıda sürürlərsə, ilk vaxtlar çətin olacaq, amma diqqəti olanda çətinlik çox gözə dəymir. Yeni sürəndə mümkün qədər çoxzolaqlı yollardan uzaq olsunlar, dolayı yollarla hərəkət etsinlər. İndi naviqasiya proqramları var, onun vasitəsi ilə istənilən yerə rahat getmək olur, lap şəhəri tanımayan sürücü də olsa azmaz. Sürət həddini heç vaxt keçməsinlər, tələssələr də qanunun tələb etdiyi qaydalara əməl etsinlər. Mənzil başına 5 dəqiqə gec çatmaqla bir şey olmaz, amma qəzadan sağ çıxmamaq ehtimalı da var, sükan arxasında olanda bunu düşünsünlər. Bəzən deyirlər qayda ilə sürmək yolda tıxac yaradır. Razı deyiləm. Hamı qaydalara riayət etsə, yollarda bu qədər insan ölməz. Qanun əməl etmək üçün yazılır.

**Lalə Mehralı**



**Mətanət MƏMMƏDOVA**

# Oğru valideynlər

Cəmiyyətimizdə gündən-günə oğru valideynlərin sayı artır. Biz jurnalistlər yazanda, televiziyalarda bar-bar bağıranda ki, uşaqlarınızın əlinə telefon verməyin, verəndə nəzarət edin, onları sosial şəbəkələrdən uzaq tutun, qoruyun, səsimizi eşidənlər çox olsa da, qulaq ardına verənlər onlardan da çox oldu. Nəticə isə göz qabağındadır. Nəticə odur ki, saysız valideyn oğurluğa başlayıb, onlar uşaqlarının gələcəyini oğurlamaqla məşğuldurlar.

Budur, gündə bir xəbər eşidirik və dəhşətə gəlirik. Baxın, hələ siz bu 44 yaşlı, 4 uşaqlı arsız “kişinin” əməlinə baxın. Övladı yaşında olan qızı aldatmağına, yoldan çıxarmağına baxın. Arsızlığına baxın ki, 44 yaşında ola-ola özünü 20 yaşlı oğlan kimi təqdim edir. 4 uşağından, həyat yoldaşından utanmayaraq görün, nə əməllərdən çıxır. Özündən 31 yaş balaca qıza evlənmək təklif etməklə onu aldadır və həyatını məhv edir. İnsanları kənd içində biabır edir. Öz 4 övladının isə gələcəyini vəhşicəsinə oğurlayır...

Bəs bu məktəbyaşlı qızın ailəsi, valideynləri hara baxırdılar? Hansı iş başlarını qatmışdı? O telefonu bu uşaq haradan əldə edibmiş, nə üçün valideynləri bu uşağa bir nəzər salmayıblar ki, o, nə ilə məşğuldur?..

Məktəbdə olmalı ikən özündən 31 yaş böyük kişinin tələsinə düşmək, bax, belə nəzarətsizlikdən olur. Uşaqlarımızın aldanması, həyatlarının məhv edilməsi onların gələcəyinin oğurlanması ilə məşğul olan biz valideynlərin günahı ucbatından olur.

Telefonu kiçik yaşlarından veririk əllərinə ki, səsini çıxarmasın, başımız sakit olsun. Guya ki, cizgi filminə baxır, nə bilim, oyun oynayır. Ta düşünmürük ki, həmin cizgi filmlərin, oyunların ortasında uşağımızın qarşısına elə bir reklam çıxır ki, onu görməsi qəbahətdən qəbahətdir. Saatlarla əlindən oyuncaq, kitab-dəftər əvəzinə telefon düşməyən uşağın gözləri zəifləyir, bir, ağlı qarışır, iki, ətraf mühitdən tədric olur, üç, sonda isə aldadılır, dörd. Bu sayı 10-a, 15-20-yə qaldırmaq olar.

Belə aldadılmalar tək Əfsanə kimi 13 yaşlı qızın başına gəlmir. Bu cür yüzlərlə hadisələr var ki, onların içərisində narkomaniyaya, oğurluğa, cinayətə təhriketmələr saysızdır.

Sonra da deyirik ki, gül kimi uşağımıza birdən-birə nə gəldi. Əfsanə kimi. İndi bu qızcığazın valideynləri gəlib ona bəkarətini qaytarsınlar, görək, necə qaytarırlar. Uşaqlığını, məktəbli olmasını, sabahını, gələcəyini qaytarsınlar, görək, necə qaytarırlar. Məsuliyyətsizlik, nəzarətsizlik üzündən övladlarının gələcəyini oğurladı, talan etdi Əfsanənin Tovuz rayonunun Quşçu kəndində yaşayan valideynləri.

Nə üçün bu sosial şəbəkələrin adət-ənənələrimizin, mentalitetimizin, milli xüsusiyyətlərimizin, ailə dəyərlərimizin əksinə olduğunu dərk etmirik? Nə üçün kütləvi şəkildə internetə, sosial şəbəkələrə meyil edirik? Günümüzün 24 saatının ən azından 20-22-ni orada gəzişirik. Nə axtarırıq, nəyin axtarışındayıq? Nə üçün övladlarımıza nəzarət etmirik? Bir dəfə onlarla oynamırıq, söhbət etmirik, gəzintiyə çıxmırıq.

Nə üçün onları başımızdan edirik. Belə isə nə üçün onları dünyaya gətiririk? Həyatlarını məhv etmək üçünmü?

1979-cu il təvəllüdlü, 44 yaşlı, 4 uşaq atası Kavazov Səfər Dursunoviçi, bəli, cinayət işi gözləyir. Amma nə olsun? Bir neçə il həbs, sonra azadlıq... Bəs onun məhv etdiyi həyat? Bəs onun ayıbı ucbatından insan içinə çıxa bilməyən həyat yoldaşı? Bəs onun gələcəyi bir arsız atanın düşüncəsizliyi, tamahı, qəbahəti üzündən oğurlanan 4 övladı? Bəs bunların hesabını kim ödəyəcək? Odur ki, beləlləri haqqında cinayət məsuliyyəti daha da çətinləşdirilməlidir. O qədər çətin olmalıdır ki, görk olsun.

Bu gün nə qədər maarifləndirmə aparılsa da, bəzi valideynlər bunun fərqinə varmır, övladlarının taleyi ilə oynayırlar. Belə isə hələ bu cür hadisələrlə daha çox üzləşəcəyik.

Ayılın, uşaqlarınıza vaxt ayırın, onlarla zaman keçirin, birlikdə kitab oxuyun, evcik qurun, oynayın, valideynlər! Onlara nəzarət edin. Günlük həyat tərzlərini nəzarətə götürün. Hara gedirlər, haradan gəlirlər, bir diqqət edin. Bir də, nə olar, onları başınızdan etmək üçün telefonlarınızı əllərinə verməyin. Gedib saatlarla televizor qarşısında seriallara baxıb, qonşu qadınla qeybətləşib, boş-boş işlərlə məşğul olub, uşaqlarınızı unutmayın. Yazıqdırlar, axı onların gələcəyi var. Bu gələcəyin oğrusu, gəlin, biz olmayaq. Onların gələcəyini əllərindən almağa axı haqqımız yoxdur...

# Alman nəşri: “Kılıçdaroğlunun bacarıqsızlığı Ərdoğanın qələbəsidir”



Artıq Türkiyədə keçiriləcək ikinci tur prezident seçkilərinə cəmi bir neçə gün qalıb. Dünyanın və bölgənin siyasi münasibətləri baxımından olduqca aktual və diqqətçəkən hadisə olan ikinci tur seçkiləri ən çox qərbdəki aparıcı medianın diqqət mərkəzindədir. ”New York Times” və BBC hazırkı prezident Rəcəb Tayyip Ərdoğanın şansları barədə olduqca maraqlı təhlillər aparıblar. Xüsusilə BBC Ərdoğanın siyasi xarizması barədə geniş fikirlərə yer verib. ”Ərdoğan kütləni tam bir orkestr şefi kimi yönəldir” başlıqlı yazıda hazırkı Türkiyə liderinin olduqca bacarıqlı siyasətçi olması, kütlə ilə mükəmməl dialoq qurmaq təcrübəsi vurğulanır. Bundan başqa ”New York Times” Türkiyədəki seçkilərin ən çox qərb ölkələrini maraqlandırdığını qeyd edərək, bu seçkilərin nəticələrinin Rusiya prezidenti Vladimir Putinin də siyasi taleyinə təsir edəcəyini yazır. Qəzet iddia edir ki, Türkiyədəki hakimiyyət dəyişikliyi ən azı regional siyasi xəritəni də alt-üst edə bilər. ABŞ qəzetinin İstanbul bürosunun müdiri olan Ben Hubbard yazısında qeyd edir ki, hazırda Türkiyədə əksəriyyət R.T.Ərdoğanın tam fərqlə qələbə qazanacına inanır. Amerikalı jurnalistin fikrincə Türkiyə cəmiyyəti hazırkı prezidenti sabitlik üçün qarant hesab edir. Almaniyan ”Frankfurter Rundschau” qəzeti isə manşetinə ”Kılıçdaroğlunun bacarıqsızlığı Ərdoğanın qələbəsidir” başlığını çıxarıb. Alman nəşri yazır ki, Kamal Kılıçdaroğlu sağ taməyüllü seçicinin səsini qazanmaq üçün təbliğat işində dəyişiklik edir.

***Mətləb Salahov***

# İrəvanın Rusiyaya qarşı siyasəti: Moskva nə edəcək?

Son vaxtlar Ermənistan rəhbərliyinin Rusiyaya qarşı təhlükə yarada biləcək diplomatik fəallığı müşahidə olunmaqdadır. Misal üçün, Ermənistanın baş naziri Nikol Paşinyan BMT-nin Baş Assambleyası sahələrində NATO-nun baş katibi Yenis Stolterbenqlə, Parisdə isə Fransanın prezidenti Emmanuel Makronla görüşündə Ermənistana müşahidəçilər missiyasının göndərilməsi təklifini irəli sürüb. Artıq o da məlumdur ki, həmin təklif Fransanın müdafiə nazirinin simasında müsbət qiymətləndirilib. Diqqət edək ki, təklif məhz hərbi struktur tərəfindən nəzərə alınıb və erməni baş nazirinin NATO rəhbərliyi ilə də müzakirəsi bu konteksti əhatə edir. Hansı ki, missiyanın ”mülki” adlandırılması da həmin məsələdə bir sıra təzadlı suallar yaratmaqdadır.











Bunun ardınca isə Ermənistanın parlament divarları arasında sözügedən müraciət səsləndirilib və yenidən ”ATƏT və ya BMT-dəki beynəlxalq partnyorların Ermənistan-Azərbaycan sərhədlərində yerləşdirilməsi” təklif olunub. Və burada ”ATƏT, yaxud BMT” deyərkən məhz Fransa və ABŞ nəzərdə tutulub. İrəvanın bu çərçivədəki cəhdləri bəllidir: Cənubi Qafqaz regionunda aparıcı güclər olan Bakıya, Ankaraya, Moskvaya və Tehrana ABŞ və Fransa vasitəsi ilə təzyiqlər göstərməyə nail olmaq. Amma ola biləcəkmi..? Yaxud gəlin görək ki, Ermənistanın cəhdləri nə qədər uğura hesablanıb və ümumiyyətlə, bu cəhdlərdən uğur əldə edə biləcəkmi?

Rusiyanın reaksiyası özünü çox gözlətmədi. Moskva Paşinyanın ideyasına qarşı çıxdı və ölkəsinin XİN sözçüsü Mariya Zaxarova ”beynəlxalq müşahidəçilərin” Ermənistanla Azərbaycan sərhədlərində yerləşməsinə qarşı çıxış etdi.

”Üçtərəfli razılaşmanın fəaliyyət göstərən reallığını başqa hər hansı fəaliyyətlə əvəzləmək olmaz. Bütün regiondan kənar oyunçular Cənubi Qafqazda qeyri-sabitlik situasiyasını yaratmağa çalışırlar”, Kremlin xarici siyasət idarəsinin rəsmisi Zaxarova vurğulayıb. Ancaq buna baxmayaraq, Ermənistana açıq havadarlıq edən və regiona aidiyyatı olmayan daha bir tərəf - Vaşinqton və Parisin əllərində əsas kozırlardan olan və İrəvanın maraqları üçün istifadə edilən rəsmi Afina da ortaya çıxıb. Belə ki, Yunanıstanın xarici işlər naziri Nikos Dendias İrəvana səfər edib və orada regionun hərbi-siyasi situasiyası müzakirə olunub. Buradan da aydın görünür ki, əslində, Yunanıstan üzərinə belə bir vəzifə qoyulub - bu ölkə nəinki Şərqi Aralıq dənizi regionunda Türkiyəyə qarşı, həm də paralel olaraq Cənubi Qafqazda Ermənistana dəstək göstərməklə regiondakı gərginliyi yüksək həddə saxlamalıdır.

Bütün bunların KTMT-yə üzv ölkədə - Ermənistanda baş verməsi və NATO ölkələri missiyasının sonrakı fəaliyyətinin hansı istiqamətdə davam edəcəyi sonrakı hadisələrin cərəyanından da aydın olacaq. Artıq hakim ”Vətəndaş sazişi” partiyasının parlament fraksiyasının təmsilçisi Qagik Melkonyan KİV-lərə açıqlama verərkən bildirib ki, ölkəsinin KTMT-dən çıxması üçün müzakirələr aparılır.

Beləliklə, açıq-aydın görünür ki, Ermənistan Cənubi Qafqazda Vaşinqton-Paris-Afina geosiyasi oxunun mərkəzinə çevrilib və belə görünür ki, həmin üçlü destabillik faktoru regionun mövcud təhlükəsizlik arxitekrurasını demontaj etməsinə hesablanıb. Habelə, Ermənistan belə bir vasitə ilə regionda Rusiyaya qarşı ikinci cəbhənin açılmasına cəhd edir.

***Afət Tahirqızı***



Təhmasib Novruzov

# Baş yeyən Paşinyan...

***Bu hay deyilən tayfa ki var, ağıl sarıdan korluq çəkdikləri tarixən məlumdur. Bunun üzərində müzakirə və ya mübahisə aparmağa da ehtiyac yoxdur. Ağıl olsaydı millət ola bilərdilər, millət olsaydılar özlərinə dövlət qura bilərdilər, dövlət qursaydılar gerçək bir tarix yarada, dünya sivilizasiyasında özlərinə yer tuta bilərdilər. Amma haradan?***

Dünyada sonradan süni şəkildə yaradılan çox millətlər və ya millətciklər var. Onların böyük əksəriyyəti sonradan yaransa da, yəni özünün etnik mənşəyi olmayıb, hansısa etnosdan və ya etnoslardan formalaşsalar da, bəşər sivilizasiyasında özlərinə yer tuta, hətta imperiyalar qura biliblər (Məsələn, ruslar kimi...-T.N.). Amma özlərini gah hay, gah erməni adlandıran, bir az hind, bir az yunan, bir az fars, nə yazıqlar ki, bir az da türk qanı daşıyan bu bədbəxt tayfaya allah ağıl vermir ki, vermir. Allahın işinə qarışmaq günah olsa da, mənə elə gəlir ki, qanında şeytan əlamətlərini də daşıyan bu tayfaya yerin, göyün yaradıcısı olan o ilahi qüdrət ona görə ağıl vermir ki, ondan istifadə edib özlərinə yer edə və sonra təkcə qonum-qonşular üçün deyil, bütün bəşəriyyət üçün başağrısına çevrilə bilərlər. Axı qanlarında şeytanlıq xisləti var! Bir tayfa ki, milyonların içindən özünə ağıllı-başlı bir başçı seçə bilmirsə, onun ağıl sarıdan kasadlığından gen-bol danışmağa dəyər. Tarixlərində birinci dəfə özünün sözdə ”müstəqil” dövlətini qurmaq kimi tarixi fürsət əllərinə düşdüyü, onu qura bilmək üçün ağıllı bir rəhbər lazım olduğu halda, neçə milyon hay içindən arayıb, axtarıb əvvəl terrorçu başlarını - Koçaryanı və Sərkisyanı gətirdilər taxta.

Sonra onlardan bezib ”demokratik” Paşinyana şans verdilər. İndi bu ”demokratik” hay erməniləri elə dərin quyuya soxub və quyunun lap dərinliklərinə sürükləyir ki, bundan sonra İzrael Ori də xortlayıb gəlsə, onları bu quyudan çıxara bilməyəcək. Baş (Oxu: hay başı-T.N.) yeyən Paşik tayfalarının başında oturub, guya özünü xilaskar kimi göstərməyə çalışsa da, erməniləri də, Ermənistan adlandırılan layihə-dövləti də hər gün bir az quyunun dərinliyinə itələməkdə davam edir. Təzə-təzə taxta çıxan kimi, kreslosu gözünü necə qamaşdırdısa, Annanı da qoluna keçirib, qızışıb dedi ki, ”Qarabağ Ermənistandır və nöqtə”! Azərbaycanın lideri də onun bu bir kəlmə sərsəmləməsinə bir kəlmə nidalı cavabla kifayətlənməyib, bütün dünyanın gözləri qarşısında sübut elədi ki, qələtini qır, ”QARABAĞ AZƏRBAYCANDIR VƏ NİDA!”. Gərəkirdi ki, bundan dərs çıxarıb bir də belə qələtlər qırıldatmasın.

Amma hardan? Bunun üçün ağıl olmalıdır başa düşsün ki, hər belə qələtinə çox kəskin qapazlar alacaq. Laçında bir qələt, sonra sərhəd boyu bir qələt, lap sonda Qarabağdakı hayları silahlandırmağa davam qələti! Və hamısına da çox kəskin qapazlar aldı, başına qapaz dəyəndə də yüyürdü ağalarının üstünə ki, qoymayın, türklər bizi... Nə bilim neyniyir... Bədbəxt, bütün dünyanı yalvarışlarla, yalan çığırbağırla boğaza yığıb, hər dəfə də elədikləri qələtlərə aldığı cavablar qoyulur dünyanın erməni düşkünlərinin qabağına, onlar da qaxılıb oturub yerlərində. Elə hər dəfə gözləyirik ki, nəhayət, bu hay baş yeyənin özündə ağıl olmasa da, onu ortaya atıb ”fıs-fıs” edənlər başına qapaz vurub oturdacaqlar yerində, amma olmur. Keçmişlərdə müxtəlif regionlarda ağıldankəm adamlar olardı, onlarla ”qırxlotular” deyilən adamlar məzələnər, vaxtlarını öldürərdilər. İndi paşiki həmin ağıldankəm, bəzi-bəzi dünya liderlərini də ”qırxlotular” adlandırmağa dəyər. Salıblar ortalığa, biri o tərəfə itələyir, biri bu tərəfə, biri başına qapaz vurur, o biri başqa yerinə başqa nəsə vurur. Axırda yenə gəlir bizim liderimizin yanına, o da elə yekə qapaz ilişdirir ki, aylarla özünə gələ bilmir. Lap elə dünən Moskvada olduğu kimi. Zavallı, istədi həm özünü siyasətçi kimi avroasiyaçıların gözünə soxsun, həm də ermənilərə özünü göstərsin ki, baxın, mən sözümü deyirəm! Yenə alınmadı. Bədbəxt elə tərs sillə aldı ki, sillənin şappıltısının səsi İrəvanda da, Parisdə də, Tehranda da ”damb” elədi...

Nə isə, hərdən fikirləşirsən ki, bizim allah yanında günahımız nə idi ki, Hindistandan İrana, ordan avropaya, Fransaya, ordan Suriyaya, İrana köç edib, muzdurluqla pul qazanan bu tayfanı sonda gətirib bizə qonşu elədi?.. Adam utanır, vallah. Nə qədər olmasa, bizim torpağımızda gəlib yaşayırlar axı! Nə qədər izah etsək də, bölgəyə bəlalı olmayanlar onları da bizim bölgədən hesab edirlər. Ta biz təktək yeddi milyard insana necə izah edək ki, onları layihə müəllifləri gətirib dürtüb bizim yanımıza. Nə bilim, vallah, bircə yol qalıb, onları burdan çıxarıb, çıxdıqları yerə qədər qovmaq! Yoxsa hələ çox utanc yaşamalı olacağıq!..

# Katolikos II Qareginin növbəti həyasızlığı

**Öz ümdə vəzifəsini unudub separatizmi alovlandırmağa çalışan Eçmiədzin kilsəsi Ermənistanla Azərbaycan arasında sülhlə bağlı müəyyən işartıların yarandığı bir vaxtda yenə də öz köhnə mərəzindən əl çəkmir**



**Erməni kilsə tarixi ilə az-çox tanış olanlara məlumdur ki, erməni kilsəsi hər zaman aqressiv, müharibəyə səsləyən bir dini mərkəz olub. Bunun isə bir sıra səbəbləri var. Uzun illər dövləti olmayan erməniləri birləşdirən, bir arada tutan kilsə uzun bir tarix boyu ermənilərin təkcə dini deyil, eyni zamanda elmi, ictimai-siyasi mərkəzi hesab olunub. Doğrudur, XIX əsrdə meydana çıxan millətçi siyasi təşkilatlar müəyyən mənada erməni kilsəsini sıxışdırsa da, bütün bu dövrdə erməni kilsəsi öz mövqeyini və təsirini qoruyub saxlayıb. Çünki erməni kilsəsi həm də ”milli kilsə” hesab olunur, yəni yalnız erməniləri birləşdirir və bir mənada din və millət anlayışını birləşdirir.**

Məlumdur ki, müxtəlif dövrlərdə erməni kilsələrinin əksəriyyətinin, xüsusilə də erməni qriqorian kilsəsinin təşkilatçılığı ilə terror planları hazırlanmış və həyata keçirilmiş, nəticədə minlərlə günahsız insan qətlə yetirilmişdir. Təbii ki, bu işdə əsas mərkəz rolunu ”erməni kilsələrinin anası” hesab olunan Eçmiədzin - Üçkilsə oynayıb. Daha əvvəl Divin, Ani, Rumkale və Sis regionlarında fəaliyyət göstərən Eçmiədzin sonradan hazırkı yerinə, yəni İrəvan yaxınlığındakı eyni adlı yerə köçüb. Erməni mifinə görə bu yeri Həzrət İsa (ə) təyin edib. Erməni kilsəsi Roma kilsəsinin hakimiyyətini və Xalkedon məclisinin qərarlarını qəbul etmir. Monofizit, yəni Həzrət İsanı (ə) ilahiləşdirirlər. Erməni kilsəsi uzun bir dövr ərzində ermənilərin yeganə dini və siyasi təşkilatı olub. Erməni dövləti ideyası da kilsədən gəlir. Baxmayaraq ki, dövlət olmadığı dövrdə hakimiyyəti məhz kilsə həyata keçirib. Bir çox tarixçilərə görə erməni millətini də yaradan kilsə olub. Yəni ermənilik etnik amildən daha çox dini məna daşıyır və kilsə ilə sinxrondur. Erməni tarixçisi H.Pastırmacıyan bunu belə ifadə edir: ”Erməni kilsəsi erməni millətinin kilsə tərəfindən verilən ruhunun yenidən dünyaya gəlmək üçün yaşadığı vücuddur”.






Sovet hakimiyyətinin qurulmasından sonra din rəsmən qadağan olunsa da, Eçmiədzin kilsəsi fəaliyyətini davam etdirib. Maraqlıdır ki, 1987-ci ildə Eçmiədzin erməni kilsəsinin katolikosu I Vazgen ABŞ-a və Kanadaya səfərində orada yaşayan ermənilərlə görüşü zamanı ”böyük Ermənistan” naminə bütün erməniləri birləşməyə, dünya ermənilərini qondarma ”erməni soyqırımı”nın BMT tərəfindən tanınmasına nail olmağa çağırırdı. SSRİ-nin dağılması prosesində başlayan erməni təcavüzkar hərəkatında da kilsənin ciddi fəaliyyəti olub. 1988-ci ilin iyun ayında Makaravan monastırının baş keşişi Stepan üç butulka fitilli yandırıcı və əldəqayırma fin bıçağı ilə Bakıda milis tərəfindən saxlanılıb. Keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Əsgəran rayonunun Kılıçbak kəndindəki erməni kilsəsində 6 minaatan, 16 əldəqayırma mina, 130 əldəqayırma əl qumbarası və s. aşkar olunub. Birinci Qarabağ müharibəsində üzərində xaç çəkilmiş erməni tankları o zaman azərbaycanlılar üçün dərin bir məna ifadə etməsə də, ermənilər üçün uzun illərdən bəri davam edən təbliğatın inikası idi. Bu mənzərəni İkinci Qarabağ müharibəsində bir əlində avtomat, o biri əlində isə xaç tutan Xudavəng monastırının keşişi Ovannes Ovannisyan dəqiq ifadə etmişdi.







Artıq hər kəsə məlumdur ki, Eçmiədzin dini deyil, daha çox hərbi-siyasi mərkəz rolunu oynayır. Ermənistandakı revanşizm, işğalçılıq ruhunun, Qarabağdakı separatçıların qanundan kənar hərəkətlərinin əsas ”ilhamvericisi” Eçmiədzin kilsəsidir, katolikos II Qaregindir. Öz ümdə vəzifəsini unudub separatizmi alovlandırmağa çalışan kilsə Ermənistanla Azərbaycan arasında sülhlə bağlı müəyyən işartıların yarandığı bir vaxtda yenə də öz köhnə mərəzindən əl çəkmir. Erməni mediasının yazdığına görə, mayın 22-də Eçmiədzində katolikos II Qareginin sədrliyi ilə görüş keçirilib. Görüşdə Ermənistan-Azərbaycan danışıqlar prosesi ilə bağlı bəyanatlar, eləcə də ”Artsax”ın ”vəziyyəti” müzakirə edilib. Görüşdən sonra erməni kilsəsi bəyanat yayıb. Bəyanatda vurğulanıb ki, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanın mayın 22-də keçirdiyi mətbuat konfransında səsləndirdiyi bəyanatlar ictimaiyyətə təqdim edilən sülh gündəliyinin real məzmununu ortaya qoydu, bunda hakimiyyətin danışıqlar prosesində təhlükəli və rədd edilən mövqeləri ortaya çıxdı. ”Artsax”ın və Ermənistanın bəzi sərhədyanı ərazilərinin sonrakı taleyi ilə bağlı Ermənistan Respublikasının mövqeyi bəlli olur.

Sülhün, əmin-amanlığın tərəfində durmalı olan, lakin bu vəzifəsini tamamilə unudan erməni kilsə şurası bildirib ki, heç bir ”güzəşt” qəbul edilə bilməz, ”artsax”ı Azərbaycanın bir hissəsi kimi tanıyan Ermənistan hakimiyyəti istər-istəməz oradakı erməniləri, guya yeni ”soyqırımı və Vətəndən məhrumiyyət” qarşısında qoyacaq. Qriqoryan kilsəsi iddia edib ki, guya o torpaqlar erməni uşaqlarının qanı bahasına alınıb və ondan imtina edə bilməzlər. Kilsə sülhə tərəfdar olmaq əvəzinə bəyan edib ki, heç bir güzəştə getmək olmaz, o torpaqları heç kim Azərbaycana verə və ora Azərbaycanın tərkibində qala bilməz. Guya Azərbaycanın tərkibində qalsa, bu, artıq ”genosiddir”. ”O torpaqlar bizim oğulların qanı ilə alınıb. Heç kim onların taleyi ilə bağlı birtərəfli qərar verə bilməz” bəyanatı ilə çıxış edən erməni kilsəsi əməlli-başlı hərbi-siyasi mərkəz kimi çıxış edib. Göründüyü kimi, son bəyanatı ilə Erməni Qriqoryan kilsəsi özünü ifşa edib. Bununla da erməni kilsəsinin heç cür sülhə yaxınlaşmaması, yenidən münaqişəni alovlandırmaq istəyi ortadadır.

***Sevinc Azadi***

Səs
27 may
2023-cü il

# Vaxtı keçmiş şokoladlardan dondurma hazırlanır?



"Bir neçə müddət bundan öncə mənə "Vaxtı keçmiş şokoladlardan dondurma hazırlanır?" adlı sual vermişdilər. Cavabında isə "İstisna olunmur" deyə söyləmişdim". Bu sözləri SİA-ya açıqlamasında Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov deyib. Onun sözlərinə görə, ola bilsin ki, şokoladlı dondurma hazırlayanda vaxtı keçmiş şokoladlardan istifadə edirlər: "Çünki neçə illərdir ki, Azad İstehlakçılar Birliyi şokoladların kütləvi məhv edilməsi prosedurunu görməyib və istisna olunmur ki, bu cür şokoladlar dondurma istehsalında istifadə olunsun. Lakin hələ ki, bunu sübut edəcək bir dəlil yoxdur".

***Ayşən***

ARAŞDIRMA

# Günəş eynəyi alarkən nələrə diqqət edilməlidir?





**Hamıya məlumdur ki, günəş eynəkləri günəşli gündə yolda və ya suda görməni asanlaşdırır. Amerika Oftalmologiya Akademiyasına görə, düzgün günəş eynəyi taxmaq həm də qısa və uzunmüddətli göz zədələrinə səbəb ola biləcək ultrabənövşəyi (UV) şüalara qarşı böyük bir müdafiədir. Günəş eynəkləri çölə çıxarkən həyatımızı asan və rahat edir, UV şüalarından kritik qoruma təmin edir. Parlaq günəşli bir gündə günəşin zərərli şüalarından qorunmadan çöldə qalsanız, bu, gözlərinizin səthinə zərər verə və göz xəstəlikləri riskini artıra bilər.**

Maraqlısı odur ki, gözlərin qorunmasına böyük məbləğdə pul xərcləmək lazım deyil. Yüksək qiymət həmişə gözləriniz üçün ən yaxşı qorunma və üstün keyfiyyətə zəmanət vermir. Bəs, günəş eynəyi alarkən nələrə diqqət etməliyik? SİA mövzu ilə bağlı araşdırma aparıb.

*Gün eynəyi seçərkən bu məqamlara diqqət edin:*

**- Eynəyin şüşəsi ultrabənövşəyi şüaların qarşısını almalıdır**

Günəş şüaları ultrabənövşəyi radiasiyanı insan gözlərinin qavramadığı və hiss edə bilmədiyi sürətlə yayır. Gözümüzü günəşdən qorumağa imkan verən gün eynəkləri ultrabənövşəyi şüalardan qoruyucu xüsusiyyətə malik və gözümüzə uyğun olmalıdır. Keyfiyyətli gün eynəklərində şüşənin rənginin tünd və ya açıq rəngindən çox ultrabənövşəyi işığı blokada etməsi vacibdir. Günəş eynəklərinin ultrabənövşəyi şüaları manеə törətdiyinə dair sertifikatı olmalıdır. Normalda, hər bir eynək müxtəlif dərəcələrdə UV-ni blok edə bilər, lakin effektiv UV bloklanması üçün xüsusi örtüklərdən istifadə edilməlidir. Günəş eynəyinin işığın qarşısını alan gücü UV200, UV400 və UV600 kimi ifadələrlə göstərilir. Xüsusilə dəniz kənarında və xizək sürərkən minimum UV400 qoruma ilə günəş eynəklərindən istifadə edilməlidir.

**- CE (Conformite Europeene) sertifikatı olmalıdır**

Eynək taxdığınız zaman bulanıq görməməli və detallar itməməlidir. Keyfiyyətli gün eynəklərinin etibarlı qeydiyyat sertifikatı olmalıdır. 1995-ci ildən Avropa İttifaqı standartlarına uyğun keyfiyyətli eynəklərin üzərində CE (Conformit? Europ?ene) yazısına rast gəlinir. CE sertifikatı məhsulun minimum təhlükəsizlik tələblərinə uyğun olduğunu bildirir. Eynək alarkən eynəyin ləkəli olmasına, şüşədə cızıqların, qabarcıqların və əyriliklərin olub-olmamasına diqqət yetirilməlidir.

**- Eynəklər şaquli xəttdə fokuslanmalıdır**

Keyfiyyəti başa düşməyin bir yolu eynək taxdıqdan sonra şaquli xəttə diqqət yetirməkdir. Bu halda nömrəsiz gün eynəklərini hərəkət etdirdiyiniz zaman görüntü yerindən tərpənmir. Eynəyi bir az yuxarı-aşağı, sola-sağa hərəkət etdirdiyimiz zaman bu xəttdə oynama və ya qırılma varsa, o eynək yaxşı deyil.

**- İşıq udma dərəcəsi uyğun olmalıdır**

İstifadəçi təlimatlarındakı "işıq udma dərəcəsi" obyektivdən kənardan gələn işığın nə qədər udulduğunu, nə qədər əks etdirdiyini və nə qədər içəri keçdiyini ifadə edir. Şəhər mühitində 40-50 faiz, günəş şüalarının daha dik olduğu dağlıq bölgələrdə 50-70 faiz, dəniz sahillərində və xizək sürərkən 80-85 faiz udma uyğundur.

*- Bütün bahalı eynəklər keyfiyyətli deyil*

Keyfiyyətli gün eynəyinin keyfiyyət və UV bloklayıcı sertifikatları olmalıdır. Bahalı gün eynəklərinin gözlərinizi adekvat qoruyacağı həmişə doğru deyil. Bəzən linzaların 100% UV bloklanması varsa, daha ucuz günəş eynəkləri bahalı variantlardan daha faydalı ola bilər.

*- Güzgülü və ya qütblü eynəklərin olması əlavə qorunma təmin etmir*

Güzgülü eynəklərin gözə daxil olan işığın bir hissəsini əks etdirdiyi üçün xüsusilə sıx işığın olduğu dəniz kənarında üstünlük verilir. Güzgü örtükləri gözə gələn işığı azaldır, ancaq UV bloklama sürətinə təsir göstərmir.

*- Saxta gün eynəyindənsə, onu istifadə etməmək daha yaxşıdır.*

*- İri eynəklərə üstünlük verin*

Günəş eynəkləri nə qədər çox qoruyursa, günəşin gözlərə zərəri bir o qədər az olur. UV şüalarının yan tərəfdən gözün içərisinə daxil olmasını azaltmağa kömək edən böyük ölçülü eynək və ya əyri kənarları olan eynəklər almağı düşünün. Günəş eynəkləri ilə nə qədər çox qorunsanız, günəş şüaları gözlərinizə bir o qədər az zərər verə bilər. Ona görə də gün eynəyi alarkən gözlərinizi tam əhatə edən eynək seçməyə çalışın. Bu, gözə daxil olan UV şüalarının miqdarını minimuma endirməyə kömək edəcək. Daha böyük günəş eynəyi seçərkən, onları günəş altında uzun saatlar taxacağınız üçün yaxşı uyğunluq və rahatlığa üstünlük verməyi unutmayın.

## Bəzi xüsusi xüsusiyyətlər

Günəş eynəyinizdə ola biləcək bir çox əlavə xüsusiyyətlər var. Əsas UV qoruma ilə yanaşı, linzalarınızda üstün filtrlər və örtüklər seçə bilərsiniz. Bunlar, adətən, daha yaxşı görmə keyfiyyəti və gözləriniz üçün üstün qoruma təmin edir. Hər şeydən əvvəl, hansı xüsusiyyətlərin ehtiyaclarınıza daha uyğun olduğuna qərar verməlisiniz.

## Şüşə örtüyü

Bir neçə örtükdən ibarət bu nazik təbəqələr gözə daxil olan işığın miqdarını azaltmağa kömək edə bilər. Onlar yüksək parıltılı atmosferlərdə çox səmərəlidir. Qradient rəngli linzalar siz aydın görəndə günəşdən gələn parıltını kəsməyə kömək edir. Bu linzalar sürücülük üçün xüsusilə uyğundur. Lakin qarda və ya dəniz sahilində çətin istifadə olunur.

**Doğru bildiyimiz səhvlər:**

* Eynəyi paltarın ucları ilə təmizləmək, təsadüfən çantaya və ya cibə atmaq ən çox edilən səhvlərdəndir. Bu səhvlər şüşədə mikro cızıqlara səbəb olur. Bu görünməz cızıqlar zamanla görmə keyfiyyətini pisləşdirir.

* İstifadə edilmədikdə eynəkləri orijinal qutusunda saxlamaq lazımdır. Təmizləmə axar su, sabun və ya təchiz olunmuş mikrofiber parça ilə aparılmalıdır.

* Kontakt linza taxan insanlar, linzaları UV filtrli olsa belə, günəş eynəyi taxmalıdırlar. Günəş eynəkləri kontakt linza taxanların tez-tez qarşılaşdıqları quru gözlərdən qoruyur.

* Günəşin çox sıx olduğu mühitlərdə gözümüzü günəş eynəyi və üzlük papaq dəstəyi ilə günəş şüalarının arzuolunmaz təsirlərindən qorumalıyıq.

***A. Vəli***

## İbrahim Tatlısəs nəvəsini hədələdi: Evimdən çıx!

Türkiyənin musiqisinin böyük əfsanəsi İbrahim Tatlısəsin başı yenə məhkəmə qalmaqalındadır. Amma bu dəfə əvvəlkilərdən fərqli durumdur. Çünki əvvəllər İ.Tatlısəs gözəl qadınlarla bağlı qalmaqal yaşayırdısa, indi öz doğma nəvəsinə görə məhkəmə qapısına təşrif buyurub. İ.Tatlısəs evini zəbt etdiyi iddiası ilə oğlu Əhməd Tatlısəsin oğlu Mərd Tatlısəsi məhkəməyə verib. Artıq 5 ildir ona məxsus dəbdəbəli evi zəbt etdiyi üçün doğma nəvəsinə



qarşı iddia qaldıran İ.Tatlısəs, vəkilləri vasitəsi ilə oğluna və nəvəsinə sərt xəbərdarlıq edib. İ.Tatlısəs iddia edir ki, onun icazəsi olmadan oğlu və nəvəsi onun evinə yerləşiblər.

## Təyyarənin qapısı havada açıldı, sərnişinlər şoka düşdü

Cənubi Koreyada həm qorxunc, həm də maraqlı hadisə yaşanıb. Məsələ burasındadır ki, "Asiana hava yolları" şirkətinə məxsus sərnişin təyyarəsi uçuşda olarkən qapılarından biri açılıb. Yonhap agentliyinin xəbərində deyilir ki, hadisə nəticəsində 6 sərnişinin tənəffüs çətinliyi yaşadığı bildirilir. Sevindiricidir ki, pilotlar təyyarəni qəzasız Dequ hava limanına endirə biliblər.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 4000**